# AZƏRBAYCAN MİLYONÇULARI

**MANAF SÜLEYMANOV**

# AĞA MUSA NAĞIYEV

**BAKI. GƏNCLİK. 1994.**

**Аз 2**
**С 96**

**REDAKTORU: Gülər Mehdiyeva**

С 4702060201 89-93 Аз 2
М 613 (07) – 94

ISBN 5-8020-1063-0

**Gənclik, 1994.**

Əsl mətləbə keçməzdən əvvəl istedad və zəhmətdən qısaca bəhs etmək istəyirəm. İctimai həyatın bütün sahələrində məqsədə çatmaq, istəniləni əldə etmək üçün yeganə vasitə əməkdir. Bunu sübut etmək üçün minlərlə misal gətirmək olar. Etiraz edib soruşa bilərlər ki, bəs istedad? Bəli, istedad da zəruridir. Amma istedadı da zəhmət üzə çıxarır.

Elektrik lampasını kəşf etməklə sehrbaz kimi dillər əzbəri olan Edison uşaqlıqda küçələrdə qəzet satırmış. Eynşteyn adi assistent, Rokfeller baqqal dükanında satıcı olub. Elə bizim milyonçuları götürək: Hacı Zeynalabdin Tağıyev palçıqçı, Şəmsi Əsədullayev, Çolaq Ağabala və Murtuz Muxtarov arabaçı, fəhlə, Hacı Hacıağa karvansaraçı, Musa Nağıyev şələçi idi.

Bu adamları halal əməkləri elə ucaldıb ki, adları dünya durduqca yaşayacaqdır.

Bu kitabda əfsanəvi milyonçu Musa Nağıyevdən danışacağıq. Musa Nağıyev özü adi bir saman satanın oğlu idi. 1848-ci ildə anadan olmuşdu. Sonralar varlanan Ağa Musa var-dövlətdə Hacı Zeynalabdin Tağıyevdən heç də geri qalmırdı. Hətta ondan zəngin idi. Axır vaxtlarda Tağıyevin tanxası* beş-altı milyon, o da əmlak və əşyadan ibarət olduğu halda, Musa Nağıyevin var-dövləti on milyonlarla qızıl pula çatmışdı. Milyonçu Ağa Musa «əfsanəvi» bir şəxsiyyətə dönmüşdü. «Cəmiyyəti-xeyriyyə» üçün şəhərin mərkəzində əzəmətli «İsmailiyyə» binasını ucaltmağına, bu mülkdən bir qədər yuxarıda Realni məktəbin inşasını öhdəsinə alıb yarımçıq qalmış üçüncü mərtəbəsinin xərcini ödəməsinə, şəhər kənarında keçmiş Semaşko, indiki Ağa Musa Nağıyev xəstəxanasını tikdirməyinə və Bakı su kəməri üçün xeyli pul verməyinə və digər çoxlu xeyriyyə işləri görməyinə baxmayaraq camaat tərəfindən xəsis adıyla damğalanmışdı.

Ağa Musa bəhayi məzhəbini qəbul etmişdi. Onun şərəfinə əzəmətli əfsanəvi «İsmailiyyə» binasının əsas fasadında, lap yuxarıda Şeyx Bəhanın qranitdən böyük bir heykəlini qoydurmuşdu. Onun altında, girdə pəncərələrin birində isə vaxtsız vəfat etmiş oğlu Ağa İsmayılın kresloda oturmuş halda mərmərdən yonulmuş heykəli dururdu.

Ağa Musa Biləcəridə çox kasıb ailədə doğulmuşdu. Atası Nağının peşəsi qeyd etdiyimiz kimi saman satmaqdı, qardaşı isə ömrünün axırına qədər hamamçı olmuşdu.

Ağa Musa cavanlıqda dalında palan biri üç qəpiyə, beş qəpiyə ona-buna şələ daşıyarmış; zəhmət-əmək hesabına pul yığıb əvvəl Balaxanıda neft təbəqələri dayazda yerləşən, quyu qazdırmaq nisbətən asan olan yerdə balaca sahə aldı. Gecə-gündüz quyu qazanların yanından çəkilmir, heç kimi bekar qalmağa, hədər vaxt itirməyə qoymurdu. Adətən xoş dillə onları işləməyə vadar edirdi. Yeri gələndə acıqlanırmış. Hər iki halda da fəhlələrə «atam-atam» deyə müraciət edirmiş: «Atam-atam, çox sağ ol! Yaxşı işlə, xoşum gəlsin səndən!» «Atam-atam, başıva

* var-dövlət

dönüm!» Acıqlananda isə: «Atam-atam, belə eləsən məni müflis edərsən», «Atam-atam, deyəsən məqsədin mənim boynuma torba salıb dilənçi etməkdir!»

Özü də fəhlələrlə bərabər ağır işlərdə işləyərdi. Nəhayət tale üzünə gülür, quyu fontan vurur, şələçi Musa dönüb olur Ağa Musa, milyonçu Ağa Musa Nağıyev. Özü də get-gedə bacarıqlı bir iqtisadçı olur. Sərvət artdıqca, tamah, həvəs, ehtiras da artır, gecə-gündüz işləyir, iş artdıqca isə qüvvə, arzu da böyüyür. 1893-cü ildə qonşu Sabunçuda, sonra Ramanada mədən salır. O zamanlar ən zəngin hesab edilən Bibiheybət dərəsində, Naftalan körfəzi sahilində mədən ələ keçirir. Qazılan quyuların hamısı güclü fontan vurur. İnsan tamahının hüdudu yoxdur. Çox keçmir ki, Ağa Musa Suraxanıda da mədən salır. Qaraşəhərdə xüsusi neftayırma zavodu tikdirir, öz mədənlərində alınan neftdən başqa həm də kənar neftxudalar üçün neft təmizlətdirib haqqını alır. Mexaniki emalatxana düzəltdirir. Hər yerdən qara neft qızıla çevrilib bulaq kimi sandıqlarına axır...

XIX əsrin lap sonlarında Ağa Musa «Neftçıxarma firması» yaradır. Şəhərdə çoxlu mülk tikdirir və alır, yüzə qədər əzəmətli bina və neçə-neçə gəmi sahibi olur.

O, uzun müddət Bayır şəhərdə, Qasım bəy məscidinin arxasında Zərgərlər küçəsi ilə Gimnazist (L. Tolstoy) küçəsinin tinində ikimərtəbəli, səkili binada yaşayırdı. Evin tinindəki daş fənərə «Səng fənər» deyirdilər. Daş fənərə qırmızı, yaşıl, abı, firuzeyi şüşələr salmışdılar; axşamlar fənər əlvan işıqlarla yanırdı. Uşaqlar toplaşıb «Sənk fənər»ə heyran-heyran, maraqla tamaşa edərdilər.

Ağa Musa təmtərağı, dəbdəbəni sevməzdi, şan-şöhrətdən məst olmazdı, artıq xərcdən, israfçılıqdan qaçardı. Məddahlığı səmimilikdən mahir psixoloq kimi ayırardı. Tərifi milçək vızıltısı hesab edərdi.

Ağa Musa həmin evdə axıradək qalmadı, sonralar Hacı Zeynalabdin Tağıyevin təkidi ilə xanəndə Seyid Mirbabayevdən aldığı dəniz qırağında, Bağ küçəsindəki əzəmətli mülkə kirayənişin köçdü.

Təbiətdə, cəmiyyətdə, eləcə də insanların özündə bəzən daban-dabana bir-birinə zidd cəhətlər, xüsusiyyətlər olur. Xəsislikdə ad çıxarmış Ağa Musa bəzən elə səxavət göstərirdi ki, hamı heyrətlənirdi.

İshaq Qaraxanov adında bir dəllək hər həftə evə gəlib Ağa Musanın saqqalını qırxar, başını düzəldərdi. Dəllək bir dəfə yerə döşənmiş xalını göstərib deyir ki, xozeyin, dövlətli adamsan, bu xalını bağışla mənə. Ağa Musadan görünməyən səxavət, işlər müdirinə tapşırır ki, bir belə xalı alıb ustaya versin.

Bir dəfə dənizdə bərk tufan olur, çoxlu gəmi batır. Ağa Musanın gəmilərindən birinin kapitanı gəlib xəbər verir: «Yükü və gəmini zorla xilas etmişəm, qoyun qurbanı nəzir demişəm, icazə ver...» Ağa Musa bərk dilxor olur, kapitanın sözünü yarıda kəsib başlayır məzəmmət eləməyə: «Çox nahaq yerə! Atam-atam, mənim hesabıma niyə qurban nəzir edirsən. Belə vaxtlarda əhd elə ki, bir həftə oruc tutaram, gəmidə xozeyin hesabına yox, öz hesabıma yeyərəm».

Bir yoxsul adam neftli torpaq ələ keçirib, quyu qazdırır. Neft isə çıxmır ki, çıxmır. Əlindəki maya qurtarır. Qohum-əqrəbadan borc alır, yenə neft çıxmır.

Usta və fəhlələr işi yarımçıq qoyub gedir. Kimə ağız açır, pul verən olmur. Axırda məcbur olub gedir Ağa Musanın yanına, vəziyyəti ona danışıb, borc istəyir. Ağa Musa onun xahişini rədd edir. Əlacsız qalıb tanınmış ağsaqqallardan, sözü keçən ruhanilərdən bir neçə nəfər götürüb təzədən Ağa Musanın yanına xahişə gedir. Xeyli söhbətdən sonra gəlirlər mətləb üstünə, Ağa Musa deyir: «Atam-atam, zəhmət çəkib gəlmisən, bu cəncəl adama mən pul etibar edə bilmərəm... Desəm ki, pulum yoxdur, yalan olar. Varımdır. Amma vermirəm». Axund söhbətə qarışır, üz vurur: «Ağa Musa, əl tutmaq Həzrət Əlidən qalıb. Kömək elə, yazıq dara düşüb, müsəlman qardaşdır, əsirgəmə, bir-iki min manat borc ver, sözümüzü yerə salma».

Ağa Musa azca fikirləşib deyir: «Atam-atam, yaxşı, üz vurursunuz, sözünüzü yerə salmıram... Amma bir şərtim var. O şeyi ki, borcu istəyəndə pulumun əvəzinə mənə göstərəcək, qoy onu elə indidən göstərsin ki, sonra mənə ağır gəlməsin».

Adamlar gülür. Axund danışmaq istəyəndə Ağa Musa onun sözünü kəsir: «Atam-atam, dedim qurtardı. Bir də deyirəm, indi görsəm sonra məni o qədər də ağrıtmaz...»

Şəhərin mərkəzində tikdirdiyi binalar hazır olanda Ağa Musa müsəlman arvadını və uşaqlarını Torqovı (Nizami) küçə ilə Marinski (Rəzul Rza) küçəsinin tinindəki binaya köçürdüb özü milliyyətcə gürcü olan ikinci arvadı ilə Krasnovodsk (S. Vurğun) küçəsində Kamenisti (Bəşir Səfəroğlu) küçəsinin tinindəki üçmərtəbəli təmtəraqlı evdə yaşamağa başladı. Binanın xarici görkəmi, arxitekturası, daşların sığalı, pəncərələr, qapılar, balkonlar, adamı valeh edirdi. Günbəzə sancılmış ştandart uzaqdan görünürdü. Qabağında lap qədimdən Bağırov bağçası adlanan güllü-ağaclı xudmani bir meydança vardı. Binanın daxili bəzəyi, otaqları, divarlarda, tavandakı qorelyef və barelyeflərin cazibədarlığı, lakonikliyi vəsfə gələn deyildi. Döşəmələrə başdan-başa geometrik formalı rəngarəng parketlər düzülmüş, güzgülər İtaliyadan gətirilmişdi.

Ağa Musa gürcü qızını çox istəyir, bütün arzularını sözsüz yerinə yetirirdi. Məclislərdə camaata təqdim edəndə kələ-kötür rus dilində deyərdi: «Naş jena...» Dalda da onu ələ salıb lağ edərdilər: «Nə olar, II Nikolay həmişə «ya» əvəzinə «mı», «Ya i Rossiya» deyirdi. Ağa Musa da «naş jena» deyib özünü çar Nikolaya oxşadır».

Ağa Musa gürcü qızını «Moy Amaliya» çağırırdı.

Mantaşev bir dəfə söhbət əsnasında öyünür ki, Parijdən yola düşməmiş Puankara mənim şərəfimə təntənəli raut düzəltmişdi.

Ağa Musa soruşur:

— O Raut Puankaranın neçə buruğu var? Nə qədər neft çıxardır gündə?

— Raut adam adı deyil, qonaqlıqdır, məclisdir. Puankara neft çıxarmır— Mantaşev izah edir.—O, Fransanın prezidenti, upravlyaşisidir.

—Əh! Nə böyük matahmış pravliyaşi... Mənim hər mədən başı bir pravlyaşim var,—Ağa Musa ağzını əyib, eyhamla gülür.—Gözləri elə əlimdədir,

ömründə, dünyasında onlara qonaq getmərəm. Pravlyaşi nədir ki, ona qonaq da gedəsən?!

Ağa Musadan xoşu gəlməyən adam soruşanda ki, işlərin necədir, qəsdən heç bir konkret cavab verməzmiş: «işlərim Nobelinki kimi—baca enli, güdəy, nə qədər istəsən qara tüstü, göz çıxardır..» deyərmiş. Heç kim bilməzdi ki, o, mədənlərdən nə qədər neft hasil edir, bağlı fontanı var, ya yox. Rezervuarlarda, anbarlarda nə qədər nefti var, haçan satacaq. Əşyanı alanda qəpik təklif edərdi, satanda isə eyni şey üçün manat istərdi. Saçını rəngləmək üçün həna ilə basma qaranın girvənkəsinə bir şahıdan artıq verməzdi; deyərdi ki, 1870-ci ildə o qiymətə alırmış. Baqqallar da ona satdıqları hənaya rəngi çox, hənanı lap az qatardılar.

Tez-tez, özü də gözlənilmədən mədənlərə, zavodlara, emalatxanalara, gəmilərə gələrdi. Bununla da hamını ehtiyatlı olmağa vadar edir, qanun-qaydanın pozulmamasına nail olurdu. Özü də sərt idi. Amma səsini çox qaldırmazdı.

Bir dəfə Ağa Musa mədənə gələndə görür ki, kontorun yanında divar hörən bənna və fəhlələr nahar fasiləsinə çıxıb, işə yaramayan taxtalardan tonqal qalayıb qızınır, çörək yeyir, söhbət edirlər. İş icraçısı papiros bükür, kibriti alışdırıb yandırır. Ağa Musa deyir: «bala, sabahdan işə çıxma, get kontora rasçotunu al». İş icraçısı çaşır: «Niyə, xozeyn?» Ağa Musa: «Ona görə ki, qabağında o boyda tonqal papirosu yandırmırsan, nahaq yerə kibriti zay edirsən, öz maluvun qədrini bilmədiyin halda, mənim malımın qədrini heç bilməzsən».

Yeri gələndə, sərvətini nümayiş etdirib bədxahlarını cinləndirməkdən xoşlanırdı. Bu da həftələrlə şəhərdə söz-söhbətə səbəb olardı.

...Bir dəfə milyonçuların arvadları Cəmiyyəti-xeyriyyədə, «İsmailiyyə» binasında ziyafət düzəldirlər, bir-birinin bəhsinə geyinib, bəzənib gəlirlər. Deyilənə görə həmin ziyafəti təsvir etmək mümkün deyilmiş. Ləl-cavahirat, qızıl içində üzən qadınların gülüş və qəhqəhələri binanın möhtəşəm salonlarında əks-səda yaradırmış.

Murtuz Muxtarovun arvadı osetin qızı Liza xanım iki dəfə başqa-başqa libasda və cavahirat dəstində məclisə çıxır, birinci dəfə al paltarda, başında naxışlı platin üstünə iri brilyantlar, dörd cərgə iri brilyant boyunbağı, ortada dairəvi iri brilyant dənələri, kənarları brilyantlarla bəzədilmiş kəmər, brilyant sırğalar, brilyant üzüklər, brilyant qolbaqlarla çıxır. İkinci dəfə taxdığı qarniturda iri badamvari zümrüd dənələrini iri brilyantlar dövrələmişdi. Qadın günəş kimi göz qamaşdırırmış. Məclisdəkilər bu gözəlliyə heyran qalıbmışlar. Deyilənlərə görə hər qarniturda 700 karat cavahir varmış.

Lakin Ağa Musanın gürcü arvadı Amaliya xanım bəzəkdə, geyimdə, cavahiratda birinci yeri tutur. O, başdan-başa zümrüd içində imiş, hamısı da güllər, çiçəklər, quşlar, pərvanələr şəklində; ayaqqabıları bərq vururmuş. Gürcü qızı foyeyə girəndə hamı heyrətdən içini çəkir, donub qalır. Bu əhvalat şəhərdə uzun müddət söhbət mövzusu olur.

Balaca bir haşiyə çıxaq. Bank və maliyyə idarələrində uzun müddət işləmiş və o dövrün keşməkeşlərini görmüş, işgüzar adamlarla durub-oturmuş, çoxlarını şəxsən tanıyan bir maliyyəçi danışır ki, ləl-cavahiratı bəzək əşyasını evlərdə saxlamırdı, oğruların qorxusundan onları banklarda xüsusi, şəxsi seyflərdə gizlədirdilər. Təkcə mənim işlədiyim «Volqa-Kama» bankında 300-dən çox seyf vardı. Onların 70—80-də neftxudalar və digər milyonçular ailə ləl-cavahiratı, bəzək əşyaları və sairə saxlayırdılar.

Oxucuların diqqətinə maraqlı bir cəhəti çatdırmaq istəyirəm: ...neftxudalar və başqa dövlətlilər cavahirat, qızıl və platindən təmtəraqlı, ziqiymət bəzək əşyaları hazırlatdıranda mütləq onların saxta surətlərini qayıtdırardılar ki, bunlar qətiyyən əsl cavahiratdan seçilməzdi. Əsl brilyant-cavahiratları banklardakı seyflərdə gizlədər, saxtanı ziyafət məclislərinə, toya-teatra taxardılar. Əlbəttə bu sirri çox az adam bilərdi. Bu saxta bəzək əşyaları elə həssaslıq, elə ustalıqla düzəldilərdi ki, bəzən mütəxəssislər belə onları ayıra bilmirdilər; yalnız sahibləri xüsusi nişanələrlə tanıyırdılar.

Qalan 200—230-a qədər seyfdə qiymətli kağızlar, mədən-zavod, mülk-maaş qəbalələri və s. saxlanardı.

Özümü saxlaya bilməyib heyrətlə maliyyəçinin sözünü kəsdim:

—Bəs o qədər ləl-cavahirat, qızıl, platin, var-dövlət nə oldu? Hara getdi?..

—Çox hissəsini Şaumyanla Mikoyan oğurladılar, yarısını qohum-əqrəbalarının evlərində torpağa basdırıb gizlətdilər, qalanını Rusiyaya qaçırdanda Sentrokaspi «Leyla» barkazında tutub hərraca qoydular. Qalanını on birinci ordu Bakını işğal edəndə taladılar. Rusiya proletariatının qarnında həzm-rabedən keçdi... Bu sözləri deyəndə qoca maliyyəçi bic-bic gülümsədi, üzünün qırışlarından istehza yağırdı.

—Necə yəni proletariatın qarnında həzm-rabedən keçdi.

—Elə ki,—qoca dediyini təkrar etdi,—o varidatı, ləl-cavahiratı, ziqiymət sənət əsərlərinin hamısını satdılar İran tacirlərinə, əvəzinə un, düyü, buğda, arpa, lobya, mərci, noxud, kişmiş, kuraqa, qaysı alıb bir hissəsini bizim camaata payladılar, qalanını da yolladılar Urusiyyətə... Komissiyalar yaradıldı, şəhərdə olan yüzdən çox bankda hesabat-uçot tərtib edildi, kataloqlar düzəldildi. Cavahirat karatına, qızıl, gümüş, platinin misqalına qədər yazıldı, burjuyların bütün mağaza və anbarlarında, evlərində olan hər şey siyahıya alınıb talandı.

Urusiyyətdə dəhşətli aclıq idi. İş o yerə çatmışdı ki, adam əti yeyirdilər. Tatar yazıçısı Əlimcan İbrahimovun «Adamlar» kitabında atanın acından öz doğma uşağını yeməsi təsvir edilirdi. Bu dəhşətli faciəni oxuyanda, ən daşürəkli adamlar belə ağlayırdı.

O sərvətləri müqavilə əsasında İran tacirlərilə hər növ ərzağa dəyişdirərək Rusiyaya göndərirdilər.

Ağa Musa haqqında danışanda neftxuda Mantaşovun işlər müdiri Qriqori Aleksandroviç Qazarbəyov deyirdi: «Min doqquz yüz səkkizinci ildə xəbər yayıldı

ki, bəs Ağa Musa şəhərdə səkkiz əzəmətli bina tikdirir. Dördünü Telefonnı (28 May) küçəsində, birini Kaspi (R. Behbudov) küçəsində, bir mülk Tarqovı (Nizami) küçəsi ilə Marinski (Rəsul Rza) küçəsinin tinində, birini opera teatrının yanında, birini Qarçakov (H. Z. Tağıyev) küçəsində,—yeddi mərtəbəli «Novaya Avropa» («Göy-Göl» mehmanxanası), birini də şəhərin qırağında (Musa Nağıyev xəstəxanası)...».

Bu binaları tikməyi Ağa Musa məşhur ev podratçısı Hacı Qasımova tapşırmışdı. Azərbaycanın milyonçuları evlərini tikməyi çox vaxt ona həvalə edirdilər. Hacı Qasımovun özünün də şəhərdə bir neçə iri binası vardı.

Bədxahlardan biri, aranı vurmaq, sövdanı pozmaq üçün gedib Ağa Musaya xəbər verir ki, Hacı Qasımov sənin evlərinin hesabına özünə də Stanislav (Azadlıq küçəsində, Bakı texniki məktəbi ilə üzbəüz) dördmərtəbəli, böyük imarət tikdirir. Sənin səkkiz mülkünün hesabına doqquzuncunu özünə tikdirir. Ağa Musa gülüb deyir: «Atam-atam, məndən heç kəs heç nə oğurlaya bilməz. Hacı Qasım o mülkü material aldığı adamların hesabına tikdirir; məndən səkkiz bina üçün aldığı pula, doqovor bağlayıb başqa xozeynlərdən doqquz binanın materialını alır. Hər səkkiz daşa bir daş, səkkiz dirəyə bir dirək, səkkiz mismara bir mismar... Bənna və əmələlərlə də eynən şərtləşib qəbaləyə qol çəkdirib. Mən mülklərimə sərf edilən şeyləri, hətta yivləri, mismarı əlimlə bir-bir yoxlamamış təhvil götürmürəm. Bunu podratçılar, mənimlə alver edənlər çox yaxşı bilir...»

Hacı Qasımovun podratla bina tikmək kontoru ilə yanaşı böyük ticarət mağazası vardı, hər növ inşaat materialı satırdı. Dünyanın hər yerindən mal gətirtdirirdi. Böyük mağazalarından birisi texniki məktəblə üzbəüz olan mülkün altında idi; cənuba baxan divarda böyük hərflərlə yazılmışdı: «Parket—Döşəmə».

Qriqori Aleksandroviç Qazarbəyov danışırdı: «Mantaşov mənə tapşırmışdı ki, müsəlmanların, Hacı Zeynalabdin Tağıyevin adı ilə bağlı bütün xeyir-şər mərasimlərinə gedim və o məclislərə pul əsirgəməyim. Bir dəfə dəvətnamə aldım ki, müsəlman cəmiyyət xeyriyyəsində mərasim olacaq. Qoltuq ciblərimdən birinə yüz manat, o birisinə isə 800 manat pul qoydum getdim İsmailiyəyə. Foyeyə girəndə mənə sarı gələn xanımın gözəlliyinə, üst-başındakı ləl-cavahirata valeh oldum. Durduğum yerdən tərpənə bilmədim, elə bil məni ovsunlamışdılar. Bu Hacı Zeynalabdinin arvadı Sona xanım idi; gözəllikdə və səxavətdə məşhur idi, xeyriyyə işlərinə çox kömək edirdi. Onu müşayiət edən iki qızın əlində məcməi vardı, birisində ipək lent parçaları, o birisində isə pul... Ləl-cavahirat içində üzən Sona xanım məcməidən bir lenta nişanı götürüb, döşümə taxdı. Mən qeyri-ixtiyari qoltuq cibimdəki pulu çıxarıb, dəvətnamənin arasına qoydum və məcməiyə saldım. Bu vaxt Ağa Musa Nağıyev göründü. Sona xanım onun da döşünə bir nişan taxdı. Ağa Musa cibindən bir göy üç manatlıq çıxarıb əli əsə-əsə məcməiyə tulladı. Sona xanım gülümsəyib dedi: «Ağa Musa, bir az əvvəl, oğlun Ağa İsmayıl məcməiyə bir yüzlük atdı, sən isə...» Ağa Musa xanımı sözünü tamamlamağa qoymadı: «Atam-

atam, o verər, ona nə var, o mənim oğlumdur, milyonçu Ağa Musanın oğlu... Sona xanım, mən kimin oğluyam? Saman satan biləcərili Nağının...»

Qazarbəyov deyirdi ki, qoltuğumu yoxlayanda baxıb gördüm ki, xanımın gözəlliyinə, üst-başındakı cavahirata valeh olub, çaşdığımdan 100 manat əvəzinə, məcməiyə 800 manat salmışam.

Kübarlar adlı-sanlı xanəndələrin, rəqqasələrin, musiqiçilərin iştirakilə müsamirələr keçirərdilər. İlin axırında, dekabr ayının əvvəllərində ənənəvi müsamirə verilərdi. Neftxudalar, zəngin tacirlər, zavod-fabrik sahibləri, tərsanələrin, gəmi kompaniyalarının yiyələri, varlı ziyalılar, bankirlər, Bakının yüksək rütbəli məmurları—qubernator, onun müavini, qalabəyi (qarodonaçalnik), bələdiyyə rəisi, hərbi komendant (general ya da polkovnik), liman rəisi (vitse admiral), hamısı da arvadlarilə, bu məclislərdə toplaşardılar. «Narodnıy dom»da məclislər qurar, əylənərdilər; bu ikimərtəbəli bina böyük bir məhəlləni tuturdu, bir tərəfdə Kamenisti (Bəşir Səfəroğlu) küçəsi, digər tərəfdə Suraxanı (Bir may) küçəsi uzanır, fasad isə Mala morskoy küçəsinə baxırdı, binanı bir ilə tikmişdilər (1900-1901); məclislər çox şən və təmtəraqlı keçərdi. «Narodnıy dom»u xaricdən və içəridən çox gözəl bəzəyirdilər. Hər yer və hər şey par-par yanırdı. Adamların geyimini təsvir etmək belə çətindir. Xanımlar ləl-cavahirat içində üzərdilər, libasları, bəzəkləri göz qamaşdırırdı. Hərbçilərin və dənizçilərin mundirləri, orden və medalları uzaqdan gözə girirdi. Kişilər dərzidən təzə çıxmış smokinq, frak, vəznələri qızıldan, şirmayıdan olan çərkəzi çuxalar, sürtuk, kostyum geyirdilər.

Bir-birinə qarışan ətirlər adamı məst edərdi.

Başlanğıcda üç-dörd nəfər aktyorun ifasında qısa bir komediya vodevil, məzhəkə göstərərdilər. Sonra qərb və şərq musiqisi çalınardı. Rəqs başlanardı.

Bufetdə quş südü istənilsəydi tapılardı. Məşhur milyonçuların, yüksək rütbə sahiblərinin—Taqiyanozov, Rayev, Bardokinin, Səlimxanov və başqalarının arvadları «alış-veriş» edərdilər. Muxtarovun arvadı Liza xanım, Taqiyanozovun arvadı Tamara lotereya, başqa dövlətli arvadlar gül-çiçək «satardılar». Kişilər isə əskinas, qızıl sikkə əsirgəməzdilər.

Gecə ərzində birdən on min, on beş min manat toplanardı. Üç yerdə pul yığılardı. Bu müsamirədə iki nəfərin verdikləri ianə qəzetlərdə əksini tapmışdı.

«Hacı Zeynalabdin Tağıyev içəri girəndə qapı ağzındakı kassaya—1000 manat;

Şampan şərabı içilən stolun kassasına—1000 manat;

Çay dəstgahı kassasına—1000 manat = 3000 manat

Musa Nağıyev qapı ağzındakı kassaya—100 manat.

Şampan şərabı kassasına—100 manat

Çay dəsgahı kassasına—100 manat=300 manat»

Bu ənənəvi müsamirələri idarə edən Hacı Zeynalabdin Tağıyev idi. 1913-cü ildə isə qəzetlərdə elan edilmişdi ki, nəvəsinin ölümünə yas saxladığı üçün

müsamirəyə gələ bilməyib, məsul idarəçi vəzifəsini məşhur xeyriyyəçi Musa Nağıyev icra edib.

Cəm olan pulları kasıb tələbə və şagirdlərin, yetim evlərinin, dustaqların ehtiyacına sərf edərdilər.

Bir dəfə Rusiyada oxuyan azərbaycanlı tələbələr üçün pul yığanlar Ağa Musanın yanına gedirlər, o da çıxarıb üç manat verir. Deyəndə ki, Tağıyev 200 manat verib, Ağa Musa cavab verir: «Hacı dövlətli adamdır, o, əlbəttə verər. O, beş yüz də verə bilər... Atam-atam, mən kasıb babayam, məndə o qədər tanka hardan?»

«Qış klubu» adlanan əzəmətli bina və ona bitişik «Astoriya» mehmanxanası da Musa Nağıyevinki idi. Çoxlu mənfəət götürür, kirə alırdı. Hər iki binanı bir gürcü icarəyə götürüb işlədirdi.

Ağa Musa bəzən kazinodakı qumar otağında həmişə oturduğu kresloda əyləşər, qumar oynayanlara baxar, arabir mürgüləyərdi; var-yoxunu uduzan, dəryada batan saman çöpündən yapışan kimi Ağa Musa oturan kresloya tərəf qaçar, ətəyindən tutub yalvarmağa başlardı. O isə, halını pozmadan bircə kəlmə ilə qərarını deyərdi. Hamı bilərdi ki, qoyduğu şərti göy yerə ensə dəyişdirə bilməz. Bu yolla on minlərlə manat pul, iri imarətlər, neftli torpaq, mədən və zavodlar, gəmilər onda bir, iyirmidə bir qiymətində, dəyər-dəyməzinə Ağa Musanın polad caynağına, amansız pəncəsinə keçərdi. Qumar ayağında doğma qardaş belə dada çata bilmirdi.

...Banket və məclislərdə hər kəs varına və nüfuzuna görə ayrılan yerdə, stulda otururdu. Künclərdə dəllallar və iş düzəldənlər, yan tərəflərdə zavod sahibləri, ortada isə bankirlər, maliyyə nəhəngləri, neftxudalar əyləşərdilər. Hər stolun arxasındakı stulların qoyuluşunda bir məna vardı. Salon özlüyündə maliyyə-iqtisadi xəritəyə oxşayırdı. Sərvətin artması və azalması ilə ildən-ilə bu xəritəyə əl gəzdirilərdi; birdən küncdəki, heç kəsin vaxtilə saymadığı, nəzəri cəlb etməyən dəllal gözlənilmədən mərkəzə keçərdi və əksinə, mərkəzdən ən mötəbər yerdə əyləşənlər yoxa çıxardı. Bəzən xəritə hər ay təshih olunur və yerlər dəyişərdi. Öz yerində tərpənməz oturanlar on-on beş nəfər idi; mövqeləri heç vaxt dəyişməzdi.

Güzgülü salondakı girdə ziyafət stolunun dövrəsində isə ancaq nəhəng neftxudalar və bankirlər otururdılar.

Qab-qacaq gümüşdən, büllurdan və çinidən olurdu.

Ziyafət zamanı bir-birinin sirrini, planını, maliyyə gücünü və buraxılacaq aksiyanın miqdarını min yolla öyrənməyə cəhd edərdilər.

Əli aşağı olan adamlar Ağa Musaya dövlət bankına veriləcək vekselə (zəmanət kağızına) qol çəkdirmək üçün əvvəldən bir balaca qumar məclisi düzəldər və Musaya qəsdən müəyyən qədər uduzub kefini kökəldəndən sonra zəmanət kağızını imzaladardılar. Bəzən onu restorana qonaq aparırlarmış. Bir kənarda oturub, bir tikə çörək üstünə kotlet qoydurub yeyərmiş ki, «atam-atam, mən toxam, iştahım küsüb». Heç bir dilənçi ona əl açmazdı, bilirdilər ki, faydasızdır.

Borc istəyənlərə deyərmiş ki, pul işinə mən baxmıram. Pravlyaşim Fətulla bəy Rüstəmbəyov baxır... Beləliklə, yaxasını qurtararmış...

1914-cü ilin maliyyə hesabına görə guya Ağa Musa Nağıyevin on milyonlarla manat tanxası varmış. 1919-cu ildə Ağa Musa Nağıyev öləndən sonra əhl-əyalı, qohumları mirası bölüşdürmək üçün məhkəməyə ərizə verirlər. Məhkəmə üç dəfə işə baxır. Ruhani cəmiyyəti də tələb edirdi ki, Ağa Musa şiə məzhəb olduğuna görə, sərvətin onda biri məscidə verilməlidir, rəsmi iddia təqdim etmişdilər. Bu əhvalatdan varislər yaman narahat olmuşdular, ruhani idarəsinin iddiasını rədd etmək üçün sübut elədilər ki, vaxtı ilə Ağa Musa məhkəmədə şahid sifətilə çıxış edəndə Qurana and içməkdən boyun qaçırıb, bəhayi kitabına əl basıb, qəsəm edib. Elə buna görə də o, vəfat edəndə məsciddən cənazəsini müşayiət etməyə az adam gəlmişdi.

Yeri gəlmişkən qeyd edək ki, Bakıda bəhayi məzhəbilər xüsusi məscid tikdirmişdilər. Bu minarəsiz məscid Çadrovı (Mirzəağa Əliyev) küçəsindəki 226-cı səkili mülkdür, qapısı və iri pəncərələri tağvarı, mavi boya ilə rənglənmişdir. Bəhayi məzhəbi sahibləri özlərinə bu rəngi seçiblər. Məscidin həyət tərəfindəki şüşəbənd və eyvanı da mavi rənglə boyadılıb. Küçədəki baş qapının üstündə dərin fikrə dalmış pirani bir qocanın qorelyefi var. Çox güman ki, Bəhayinin daş portretidir.

Təəccüblüdür ki, bəhayilər Ağa Musa Nağıyev kimi ayıq, ehtiyatlı, hiyləgər bir adama təlqin etmişdilər ki, bu məzhəbi qəbul etsə, ölməyəcək. Ağa Musa buna inanmışdı. Bir dəfə Tağıyevin evində eyvana çıxır və Hacını da çağırır yanına. Tikdirdiyi yeddi mərtəbəli «Yeni Avropa» (Göy-Göl) mehmanxanasını (o zaman şəhərdə ən uca mehmanxana idi) göstərib deyir: «Zeynalabdin, əgər ölsəydim, mən o mülkü tikdirməzdim, o qədər xərc tökməzdim, mən ölməyəcəyəm».

Maraqlı orasıdır ki, İranda camaat arasında ölməyəcəyi elan edilmiş bəhayiləri İran şahı tutdurub meydanlarda, camaatın gözü qabağında dar ağacından asdırırdı və sübut edirdi ki, ölürlər.

Bəhayi qanununa görə miras qalan sərvət ölənin arvadı, uşağı, nəvələri və qohumları arasında bölünməli, iyirmidən bir hissəsi isə maarif işləri üçün paylanmalıydı. Məhkəmə qabaqca çox çətinlik çəkir, axırıncı iclasda iki nəfəri - müsəlman və gürcü arvadları vərəsə təsdiq edir.

Mədən, gəmi və mülklərində işləyənlərə maaş vermək üçün Ağa Musanın öz üsulu vardı. Kontorda divarda hər mədən, zavod, emalatxana, gəmi və mülk üçün iki torba asmışdı: gəlir torbası, çıxar torbası. Pul üçün gələnlər çıxar torbasına qoyulmuş pulu götürüb aparırdılar. Mədən müdiri, kapitan, mülk müvəkkili, Ağa Musaya deyəndə ki, torbada pul yoxdur, Ağa Musa onu qoymazdı sözünü qurtarsın—atam-atam, gəlir torbasına pul salmısınız ki, çıxar torbasından götürə biləsiz? Məndə havayı pul hardan?! Qazanc verin, atam-atam, xərclik alın!

Bir nəfər gəlib Musa Nağıyevə deyir ki, Zəngəzurda mis mədəni satılır, omu alsan, yaman qazanarsan. Ağa Musa soruşur: «Mis də neft kimi fontan

vurur?» Adam təəccüblənir: «Mis də fontan vurar?! Əlbəttə, yox!» Ağa Musa: «Elə isə o mədən mənə lazım deyil. Mənimki fontandır. Atam-atam, qaranlıq yerin altında iynə ilə gor qaza-qaza mis axtarmaq mənim karıma gəlməz»—deyir.

Qoçular iki dəfə Ağa Musanı oğurlayıb öldürməklə hədələmişlər. Birinci dəfə faytona basaraq gözlərini bağlayıb aradan çıxardırlar, gizli mənzilə gətirib on min manat tələb edirlər. Ağa Musa özünü itirməyib deyir: «Min manat verə bilərəm, bir qəpik də artıq yox». Ölümlə təhdid edəndə halını pozmadan deyir: «Atam-atam, öldürün. Bir mini də ala bilməzsiz, o da əlinizdən çıxar». Nə qədər soyuqqanlı, səbirli, təmkinli olmaq lazımdır ki, belə dar ayaqda qorxub təşvişə düşməyəsən. Üç gün girov saxlayıb, yedirdib-içirdib, kart oynamışdılarsa da, boynuna min manatdan artıq qoya bilməmişdilər.

İkinci dəfə isə 1908-ci ilin dekabrın axırlarında, yeni il ərəfəsində oğurlamışdılar. Özü deyirmiş ki, ikindi vaxtı Baba Səməndəroğlu ilə fayton tutub yollandıq Bağırov bağının qabağındakı evə. Faytondan düşüb girdik binaya (şübhəsiz fayton kirəsini Baba versin deyə tez düşüb). Baba qaldı faytonçunun haqqını verməyə. Pillələrlə qalxırdım ki, birdən heç bilmirəm hardan dörd nəfər kişi əllərində tapança, ikisi yuxarıdan, ikisi də həyətdən paradnıya qalxan pilləkənlərdən mənə yaxınlaşdılar. Görünür darvaza altından güdürmüşlər. Hökm elədilər ki, sus! Cınqırını çıxartsan özüvü ölmüş bil. Düş qabağa, qayıt dala! Nə əl-qol açmaq, nə də dinmək mümkün idi. Dörd tapança mənə tuşlanıb, nitqim kəsilib, dilim lal olmuşdu. Düşdüm pilləkənin yarısından qabaqlarına. Baba faytonçu ilə hesabı çürüdüb gəldi içəri, onu da qatdılar mənə. Çıxdıq küçəyə yaxından ötən faytonu saxlayıb bizi mindirdilər, iki nəfər də oturdu, böyür tərəflərdə, tapança əllərində hazır, biz qaldıq ortada. Yerdəki iki nəfər də fayton tutub oturdular. Düşdük yola Bolşoy Morskoya (Bülbül küçəsinə) tərəf. Böyrümüzdə oturanlar əllərindəki tapança ilə bizi təhdid edib xəbərdar etdilər ki, səs-küy salıb adamları, polisi köməyə çağırsanız, özünüzü ölmüş bilin. Faytonumuz qabaqda, o birisi dalda, tələsmədən, aramla, elə bil seyr-səfaya, gəzməyə çıxmışıq. Bolşoy Morskoydan Tarqovı (Nizami) küçəyə burulduq, gəlib Qolubyatinskiyə (Nigar Rəfibəyli) döndük və bu qayda ilə Vorontsov (Əzizbəyov) küçəsinə çatdıq. Yol boyu tanışlar səkilərdən mənə salam verirdilər, mən də başımı tərpədib gülə-gülə salamlaşırdım. Elə bil heç nə olmayıb, hər şey öz qaydasındadır. Şübhə oyadası heç bir hərəkət, söz ola bilməzdi.

«Fantaziya» hamamının qabağında faytonlar dayandı. Dörd nəfər təzə, naməlum kişi də bizə qoşuldu. Öz aralarında xeyli danışandan sonra faytonları buraxıb yola saldılar. Bir qədər piyada getdik. Babanı buraxdılar və təhdidlə tapşırdılar ki, düz evə get. Xeyli piyada yeridik. Dayanıb təzədən fayton saxladılar. Mindik. Şamaxı yolunu (C. Cabbarlı küçəsi) dalda qoyub darısqal küçələrlə, dolaşıq dalanlarla hərlənə-hərlənə gəlib çıxdıq Balaxanı şosesinə. Keçdik Keşlənin yanındakı «İzvozçi» slabodkaya.

Belə dolanıb hərlənməkdə məqsəd izi itirmək idi; duyuq düşüb təqibə başlasalar, gəlib onları tapa bilməsinlər.

Məni ikindi vaxtı qaçırmışdılar, divan-dərə isə iki saatdan sonra əhvalatdan xəbərdar olur. Babanı nə qədər dindirirlər heç nə başa sala bilmir, çünki gəlmə adam idi, özü şəhər küçələrini, məhəllələrini tanımırdı. Polismeystr polis məmurlarını, məxfi polisi ayağa qaldırır. Xeyli kazak səfərbər edirlər. Əlli nəfər atlı qaradovoy da onlara qoşulur.

Axtarışa polismeystr özü başçılıq edirdi. Çünki Hacı Zeynalabdin telefon etmişdi.

Məni saldılar çayçıxanaya, oturtdular qaynayan iki samovarın dalında, başladılar çay içməyə, şor-qoğal yeməyə, zarafat etməyə.

Kim isə xəbər gətirdi ki, «İzvozçi» slabodkanı və Keşləni polislərlə kazaklar mühasirəyə alıblar. Həriflər bu xəbəri heç veclərinə də almadılar, çay içə-içə başladılar kart oynamağa. Qabağımda çay, bayıra baxıb görürəm ki, atlı kazaklar, girdovoylar bu yandan o yana at çapır, vurnuxurlar.

Məni oğurlayanlar səkkiz nəfər idi. Üzü açıq, niqab-zad geyməmişdilər. İkisi müsəlman, ikisi erməni, ikisi rus, ikisi də gürcü idi. Başçıları, güdəboy gürcü balası qarabəniz, suyuşirin adam idi. Çox az danışırdı. Müsəlmanca bilirdi. Xoşrəftar, xoş-məcaz... Amma köpəyoğlu çox zəhmli idi. Gözlərinə, üzünə dik baxmaq olmurdu. Mənə baxıb arabir eyhamla astadan gülə-gülə deyirdi: «Ağa Musa, yeyək, içək, kef eləyək, allah bilir sahaba kim qala, kim ölə...»

Heç tələsmirdilər. Günün günortaçağı çapğınçılıq edir, heç kəsi saymırdılar. Birdən gürcü balası qalxdı: «Uşaqlar,—dedi,—durun gedək!» Çıxdıq həyətə, əyləşdik faytona. Bizimki qabaqda, gürcü balası oturan fayton dalda, düşdük yola. Kazaklar uzaqda idilər.

Torpaq yoldan ötəndə bir okolodoçni ilə bir qaradovoy qabağımıza çıxdılar, ayaq saxladılar. Gürcü balası yanakı çevrilib baxdı, hər ikisi başlarını aşağı salıb getdilər. Qaranlıq düşürdü...»

Musa Nağıyev əhvalatı bura qədər danışırdı. Elə ki, soruşurdular: Ağa Musa, sonra nə oldu? Mənalı bir əda ilə deyirdi: «sonra nə olduğunu sonra danışacağam».

Ağızdan-ağıza gəzirdi ki, Musa Nağıyevi azad etmək üçün çapavulçularla Musanın baş işləri müdiri arasında xeyli danışıq gedib, hətta Hacı Zeynalabdin Tağıyev də miyançılıqda iştirak edib.

Deyilənlərə görə, onu 100.000 manat alandan sonra azad ediblər.

1909-cu ilin aprel ayında «Bakinets» qəzeti xronika şöbəsində elan etmişdi ki, Bakı şəhər rəisinin keçmiş müavini, indi Batum vilayətinin hərbi qubernatorunun müavini polkovnik T. P. Şubinskinin Musa Nağıyevin oğurlanmasında barmağı olub, ona görə də Bakıdan tez köçüb Batumda işə düzəlib. Hətta iddia edirdilər ki, Musa Nağıyevdən alınmış məbləğdən Şubinskinin payına 26 000 manat düşübdür.

Digər məqalə təxminən bu məzmunda idi: «Camaat arasında sabiq Bakı şəhər rəisi müavini, hazırda Batum vilayətinin hərbi qubernatoru müavini polkovnik P. P. Şubinskinin həbs edilib dustağa salınması barədə geniş şayiə yayılmaqdadır.

Nəql edirlər ki, Qafqaz canişini polkovnik Şubinskini hüzuruna çağırıb şəxsən onun ordenlərini çıxardıb, ötən il Musa Nağıyevin oğurlanmasında iştirak etdiyi barədə təqsirnamə əsasında qazamata saldırıb».

Anbaan artan şayiə şişib min bir rəngə boyanır, fantastik xarakter alırdı, bu sensasiyalı şayiələri hətta «gözlərilə görən» şəxslər peyda oldu. Onlar şübhə edənləri inandırırdılar. Saatbasaat böyüyən söhbət o yerə çatır ki, guya oğurlanmış xəsis milyonçu Musa Nağıyevi qorodonaçalstvo (şəhər rəisliyi idarəsinin) zirzəmisində gizlədibmişlər...

Sonralar Musa Nağıyev nəql edirmiş ki, doğrudan da gecə vaxtı gözlərini bağlayıb faytonda şəhərdə çox hərlədəndən sonra onu aparıb zirzəmiyə salıblar. «Bu zirzəmi xalça ilə döşənib, üç-dörd otaqdan ibarət, mətbəx, rahatxana, əl-üz yuyulan yer, avropa mebelləri... Tez-tez qramofon çaldırır, qumar oynayır, zarafat edirdilər. Növbənöv ləziz yemok-içmək xirtdəkdən idi».

Xülasə, 100. 000 manat alandan sonra Musa Nağıyevi günün günortaçağı gətirib salıblar Hacı Zeynalabdin Tağıyevin evinə.

Ağa Musanın Bibiheybətdəki mədənlərindən birində bir quyu güclü fontan vurur, fəhlələrə yalvarıb deyirmiş ki, «başınıza dönüm, qoymayın neft hədər yerə axsın, zay olsun, sizə xələt verəcəyəm. Yanğın baş versə hamımız dilənçi olarıq. Qonşular nasos qurub neftimizi anbarlarına vururlar... Axı, bu sizin cibinizdən gedir. Atam-atam, cəld olun, a qoçaqlar...»

Fəhlələr birtəhər fontanı bağlayırlar. İki gündən sonra vəd etdiyi xələti istəyəndə Ağa Musa boyun qaçırıb deyir: «Atam-atam, hardan?! Hardan verim xələti?! Bir az neft çıxdı, onu da qonşular gözünüzün qabağında talan elədilər».

Sabahı gün Musanın oğlu Ağa İsmayıl mədənə gəlir. Fəhlələr şikayət eləyirlər ki, atan verdiyi vədə əməl etməyib. Ağa İsmayıl iki araba kəllə qənd gətizdirir, hər fəhləyə bir kəllə qənd, beş manat pul paylatdırır. Bu vaxt Ağa Musa da gəlib çıxır. Əhvalatdan xəbər tutduqda, yüyürüb deyir: «Atam-atam mənim də payımı verin. Fontanı bağlayanda məndən çox can yandıran olmayıb. Az qalmışdı canım ağzımdan çıxsın. Gedib o dünyanı görüb qayıtmışam».

Ağa Musanın adı camaat arasında xəsis çıxsa da yuxarıda qeyd edildiyi kimi, o, birinci realnı məktəbin hamiliyini boynuna almışdı, ildə hazırlıq sinfinə iyirmi beş müsəlman uşağı qəbul olunurdu. Bunun nəticəsində az bir zamanda müsəlman şagirdlərin sayı xeyli artmışdı.

Ağa Musanın müsəlman arvadından bir oğlu—Ağa İsmayıl və beş qızı vardı. Qızlardan Ümmülbəni Bakı neftxudalarından biri Şəmsi Əsədullayevin böyük oğlu Mirzə Əsədullayevin arvadı idi. Burada Musa Nağıyevin və Şəmsi Əsədullayevin nəvəsi Ümmülbəninin (Baninin) Ağa Musa haqqında xatirələrindən

sətirlər lap yerinə düşər: «Mən qalmaqallı bir ilin qış günlərində qəribə, ekzotik, varlı bir ailədə doğulmuşam. Və o il tarixin unudulmaz, dəhşətli dövrlərindən idi. İnsan dühasının ictimai çaxnaşmalar naminə yaratdığı tətillər, talanlar, qırğınlar və bu kimi başqa əməllərlə dolu idi. Bakıda ermənilər yerli müsəlman əhalisini yerli-dibli qırıb tükənməz sərvətlərə yiyələnmək istəyirdilər. Elə bu vaxt anamı şəhərdən ətraf kəndlərdən birinə aparıblar ki, canı xilas olsun və rahatlıqla doğa bilsin. Lakin kənarla əlaqə kəsildiyindən yardım almaq mümkün olmayıb və anam vəfat edib, gənc ömrü bada gedib. Mən sağ qalmışam və onun adını mənə qoyublar».

Dörd bacıdan ən balacasına hamı xüsusi qayğı göstərib. Atası alman qadını, freyleyn Anna adlı dayə tutur. Və mələikəyə oxşayan bu xanım Ümmülbəniyə ana qayğısı göstərir, onu boya-başa çatdırmaq üçün zəhmətini əsirgəmir.

Birinci dünya müharibəsinə görə Avropaya gedə bilmirlər. Şimali Qafqazda, Kislovodskda istirahət etməli olurlar. Ümmülbəni kitabında belə yazır: «Babam—anamın atası ordakı villalarından birini ixtiyarımıza verdi».

Ağa Musa özü də ikinci arvadı gürcü qızı ilə Kislovodska gəlir, nəvəsi onunla görüşünü belə təsvir edir: «Cəsarətli addımlarla çinar dibində əyləşmiş babama yaxınlaşıb saqqallı üzündən yüngülcə öpdüm. Sonra yaxınlıqdakı skamyada oturub göydəki buludlara baxır və fikirləşirdim ki, babama baxmaqdan buludlara tamaşa eləmək yaxşıdır. Heç birimiz danışmır, amma hər ikimiz borcumuza əməl edirdik. Kişi mənim onun yanında oturmağıma dözməli, mən isə ona böyük rəğbətimi bildirməli idim. Fürsət düşən kimi getmək üçün ayağa qalxdım. Babam da öz borcunu yerinə yetirmək üçün cibini qurdalamağa başladı. O çox qurdalandı—əlinə gələn, deyəsən, iri pullar idi. Nəhayət, xırda tapıb arxayın nəfəs aldı və ovcuma on qəpik qoydu. Hədiyyə əvəzinə pul vermək bizim gözüaçıq ailə üzvləri arasında adətə çevrilmişdi. Mənim bu adətə etirazım yox idi, əksinə, xoşum gəlirdi. Amma hədiyyənin qiymətindən pərt olmuşdum. Hər halda bu pulu götürməli, razılıqla gülümsəməli idim.

Elə bu vaxt bəxtim gətirdi; babamın ikinci arvadı bizə yanaşdı, üzümdən öpdü və əlimdəki on qəpiyi görəndə incik səslə qışqırdı: «Ağa Musa, (o ərinə hörmət əlaməti olaraq «Ağa» deyirdi) qıza əməlli-başlı pul ver. Axı bu on qəpiyə nə almaq olar?»

Babam üz-gözünü turşudub yenidən cibini eşələməyə başladı. Axır ki, bir manat tapıb mənə verdi, məndən də, öz əliaçıqlığından da bezikmiş kimi üzünü yana çevirdi».

«Babam Bakının ən varlı adamlarından biri olsa da, şəhərin ən xəsis adamı sayılırdı. Onun xəsisliyi haqda şəhərdə çoxlu şayiələr yayılmışdı. Bir-birinə zidd olan bu şayiələrin uzun bir siyahısını tutmaq olardı. Bu söhbətlərdən birini misal gətirməklə onun xəsisliyi barədə müəyyən təsəvvür yaratmaq olar. Bəzi günlər müxtəlif xeyriyyə cəmiyyətləri Bakı küçələrində süni bənövşələr satırdılar. Satıcılar yoldan keçənlərin paltarına bir bənövşə taxıb, içərisində qəpik-quruş cingildəyən dəmir qutunu irəli uzadır, xeyriyyə üçün pul istəyirdilər. Deyilənə görə

babam belə adamların cənginə keçməmək üçün həmən günlər evdən çölə çıxmazmış. Amma öləndə məlum oldu ki, o, heç tanımadığı adamlara da kağızsız-filansız iri məbləğdə pul borc veribmiş. Hələ çoxlu kasıb tələbəyə də təqaüd göndərirmiş».

«Fəhlələr bir dəfə babam Musadan tələb edirlər ki, barakda yaşayış üçün şərait yaradılsın, iş paltarı, sabun verilsin, maaş artırılsın, bir də fəhlələrlə yaxşı rəftar edilsin. Babam xoş rəftardan başqa bütün tələbləri rədd edib deyir: «Onlarla adam kimi dolanın, amma qalan başqa tələbləri rədd edin, pul yoxdur».

«Onu iki dəfə oğurlamışdılar və hər ikisində böyük məbləğ verib sağ-salamat qurtarmışdı. Cəsarətlə deyə bilərəm ki, adam oğurlamaq sahəsində fəaliyyətə Bakı Amerikadan çox əvvəl başlamışdı. Fərq burasındaydı ki, bizdəki qansterlərə «qoçu» adı verilmişdi».

Ata-babadan Əsədullayevlər də rəncbər və arabaçı olublar. Suraxanıda buğda və arpa əkirlərmiş; biçindən sonra arabada yük daşıyıb kirə alırlarmış.

Neftin ecazkar qüdrətindən Şəmsi də milyonçu oldu, həm neft mədəni, həm də neft daşıyan dəniz və çay donanması düzəltdi. Şəhərin mərkəzində əsas fasadı Qoqol küçəsinə, digər iki yan fasadların biri Gimpazist (L. Tolstoy) küçəsinə, digəri Karantin (Həzi Aslanov) küçəsinə baxan əzəmətli bina tikdirdi. Başqa binaları da vardı. Xəzər dənizi sahillərinə və Volqa boyu şəhərlərə öz gəmilərində neft daşıtdırıb satdırardı. Camaat arasında Şəmsi Əsədullayevə Nobellərin qənimi deyirdilər. Çünki bütün Rusiyada, Türküstanda, İranda, hətta Finlandiyada belə Nobellərin dükanı və kontorları ilə üzbəüz, ya da yanaşı kontor və dükan açıb nefti Nobellərdən ucuz qiymətə satır, onlara mane olurdu.

Oktyabr ayının axırlarında Volqada naviqasiya bağlananda, Bakıda neftin qiyməti xeyli aşağı düşürdü; böyük neftxudalar, o cümlədən Şəmsi də, xırda mədən sahiblərindən nefti ucuz alıb rezervuar anbarlara vurar, yazda naviqasiya açılanda Rusiyaya daşıtdırardı.

Şəmsinin Bakıda bir müsəlman, Moskvada isə Mariya Pavlovna adlı bir rus arvadı, iki oğlu və qızı vardı. Mariyanın atası çar ailəsinə yaxın senator idi. Bakı neftinin tükənməz qızılı, bir də qohum senatorun köməyi ilə bağlı qapılar Şəmsinin üzünə taybatay açılırdı. Bütün bunların hesabına Peterburqda Neva çayı sahilində, Qış sarayı yaxınlığındakı məhəllədə əzəmətli bina ucalda bilmişdi. Moskvada Mariya üçün içərisində çarhovuz və oranjereya olan təmtəraqlı mülk almışdı. Hər il Avropa şəhərlərinə, yaylaqlarına istirahətə, səyahətə gedirdilər.

Böyük oğlu və müsəlman arvadı Mariya üstündə dava-şava salır, Şəmsi ilə yola getmirdilər.

Şəmsi qış aylarını çox vaxt Moskva və Peterburqda yaşayar, tacirlərlə müqavilələr bağlayar, Novruz qabağı Bakıya qayıdar, satdığı nefti müştərilərə yola salardı. Mərdəkandakı yaraşıqlı malikanəsində yaşayar, qohum-əqrəba, dost-aşna ilə gününü eyş-işrətdə keçirərdi. O gün olmazdı ki, əzəmətli binanın orta

günbəzindəki mildə ştandart yellənib dörd bir tərəfə ziyafət məclisinin davam etməsi xəbərini verməsin.

Qocaman buruq ustası, Mövsüm kişi nəql edirdi ki, bir dəfə yazın əvvəlində Novruz bayramından bir az keçmiş qohumum Murtuz Muxtarovun bağında idim. Əlimdə bel bağçada gülləri sulayırdım, qəfəslərdəki min bir avazla oxuyan quşlara dən, ceyran və marallara yem verirdim. Nökər yaxınlaşıb dedi ki, Murtuz ağa sizi çağırır. Getdim. Murtuz şüşəbənd eyvanda oturmuşdu. Məni görəndə dedi: «Oğul, Ağa Şəmsi Məskodan qayıdıb, bağdadır. Get malakeş usta Məsməliyə xəbər ver, axşamüstü gəlsin, gedək Ağa Şəmsiyə baş çəkək. Usta Məsməli söhbətcil kişidir, xoşməcazdır. Şirin danışır».

Axşamüstü getdik Şəmsinin bağına. Nərd oynayırdı. Mehriban-mehriban görüşdük. Başladı təzədən nərd atmağa. Qaşqabağı yerlə gedirdi. Gödəkboy, gonbul, tüklü bir kişi idi. Bizə çay gətirdilər. Birdən uzaqda paroxod fit verdi. Malakeş Məsməli dedi: «Ağa Şəmsi, paroxodundur a, fit verir, elə bil səni haraylayır. Fiti min gəminin fitinin içindən seçilir. Böyük oğlun Mirzənin, bala xozeynin adınadur a...»

Deyilənlərə görə Şəmsi gəmilərin fitinə yaman aşiq imiş, bütün gəmi və barkazlarındakı sirenalarını xüsusi sifarişlə qayıtdırarmış. Bir dəfə köhnə gəmisini satırmış. Müştəri deyir ki, gəmi çox köhnədir. Şəmsi cavab verir ki, köhnəliyinə nə baxırsan, sən onun fitinə qulaq as, yeddi diyarda eşidilir.

Malakeş Məsməlinin sözündən Şəmsinin rəngi qaçdı, papağını peysərinə itələyib, yerindən sıçrayıb ayağa qalxdı, hirsli-hirsli qışqırdı: «O paroxod indi mənimki döyül, borclu olduğum adamlarındır. Pul yiyələrinindir,—papağını götürüb, zərblə yerə çırpdı, başladı böyük oğlunu söyüb-qarğımağa.—Böyük oğul, səni görüm zəlil olasan, ananla bir gora basdırım, məni xəcil elədüz, müflis elədüz!»

Boğazı tutuldu, su verdik, oturdub başladıq təsəlli verməyə. Şəmsi sakit olmurdu, Muxtarova baxıb dedi: «Ağa Murtuz, bax gör, böyük oğlum, dəyyus, başıma nə mərəkə açıb. Hər il payızın axırlarında müştəri tacirlərlə doqovor bağlayıb, neft satıram, Bakıya pravlyaşiyə tel vururam ki, bu qədər ucuz qiymətə neft al, xırda sahibkarlardan vur anbarlara; yazda yollayım müştərilərə. Bu il vurduğum tel gəlir bura cümə günü çatır, pravlyaşi olmur kontorda. Aparıb verirlər Mirzə başıbatmışa. O da teli oxuyur, anasınan söz bir olub gizlədirlər. Allah canını almış, mənim gəlməyimdən bir həftə qabaq anasını götürüb, Xorasan ziyarətinə aparıb ki, üz-üzə gəlməyək. Gəlib pravlyaşiyə tapşırıram ki, aldığın nefti yavaş-yavaş paroxodlara vur, yerit Urusiyyətə, müştərilər intizardadır. Deyir ki, siz payızda sərəncam vermədiniz, mən də icazəsiz cürət edib, neft almadım. Soruşuram, necə yəni, tel vurmuşam axı! Deyir ki, mən almamışam. Çatmayıb mənə. Poçtu yoxladıq, məlum oldu ki, başıbatmış Mirzənin əlinə düşüb. O da arvadımla müxənnət çıxıblar, əlbir olublar. Moskodakı arvad üstündə, Mariyaya görə ana-bala başıma belə oyun açıb, məni xar elədilər.—Birdən başladı hirsindən

ağlamağa,—İndi yaz gəlib, neft bahalanıb, gərək özüm iki-üç dəfə baha qiymətə Bakıdan aldığım nefti öz xərcimlə daşıtdırım Urusiyyətin uzaq şəhərlərinə, Allah Əkbərin qurtaran yerinə, qəbalə bağladığım tacirlərə ucuz satım. Yolpulu da məndən. Gəmilərdən neçəsini satmışam. İndi zavodu, Ramanadakı mədəni də gərək satam... Müflisəm, müflis... Əlimdə qalan bu bağı, şəhərdəki mülklərimi də, Suraxanıdakı xırman yeri... Bunlar da tezliklə satılar, əlimdən çıxar. Canım çıxsa yaxşıdır.

Qəzəblə özünü yerə çırpdı, ürəyi getdi.

Birtəhərlə onu ayıldıb, təsəlli verməyə başladıq: «Allah kərimdir, əl-amanda qoymaz səni...»

Musa dar gündə qudasının dadına çatıb, iflas olmaqdan xilas edir. Rusiyadakı müştərilərə neft göndərir, qoymur şəhərdəki mülkü, bağı və Suraxanıdakı xırman yerini satsın. Fətulla bəy Rüstəmovun məsləhətilə Suraxanıda xırman yerində Ağa Musa buruq qurdurub, quyu qazdırır. Çox keçmir quyu ilə bir fontan vurur ki, ətraf neft dənizinə dönür; özü də xalis Suraxanı nefti, benzinə bərabər. Müştərilər göydə götürürlər. Gündəlik hasilat on min tondan çox olur. O quyu indi məşhur fontan vuran quyularla bərabər Bakı neft-qazma tarixinə daxil edilib, olduğu yerdə xatirə daşı basdırılıb, xüsusi nişanə qoyulmuşdur. Xəsis Ağa Musa lazım biləndə belə dada çatırdı.

Bibiheybətdə Ağa Musanın qazılan quyularının hamısı güclü fontan vururdu. Bu da onu göstərirdi ki, zəngin neft təbəqələri, körfəz suları altında da uzanır. Elə ki, bələdiyyə idarəsi su altındakı neftli torpaqları hərraca qoydu, milyonçular ağla gəlməyən qiymət təklif edirdilər. Neftin putu bir abbası (20 qəpik) olduğu halda, 100.000 put neft üçün ildə xəzinəyə 300.000 manat verməyə zəmanət kağızına qol çəkirdilər. Neftin hər putu üç manata düşürdü, bu qədər böyük xərci ödəməyə onları vadar edən zəngin, milyon tonlarla neft saxlayan təbəqələrə yiyələnmək idi, əmin idilər ki, bu sərvət xərclərini birə min çıxardacaqlar. Heç kəs qonşuluqda başqa sahibkarların olmasını istəmirdi. Mədən sahibləri quyuları qonşunun sərhədində qazdırırdılar. Buruq ustalarına rüşvət verirdilər ki, qonşu sahədə qazmanı yubandırsınlar; qonşuda quyunun hansı balta ilə qazıldığını, gil məhlulunun xüsusiyyətlərini, təbəqələrin özünü necə «aparmasını», neft təbəqəsinə rast gəldikləri dərinliyi, bir sözlə, bütün texnologiyanı pul gücünə öyrənirdilər... Sahibkarlar neftli torpağı əldən çıxarmamaq üçün tez-tez xəzinəyə cərimə verməyə razı olurdular.

Bibiheybətdə Naftalan körfəzi başdan-başa neft idi, suda hər bir metrdən bir qaz qaynayırdı. Adamlar qayıqda hərlənib vedrəyə neft yığır, çəlləklərə doldurub satırdılar. Bəzən nadinc cavanlar kağız və ya cındır parçalarını alışdırıb, körfəzə atardılar, dənizdən alov qalxardı. Novruz qabağı, çərşənbə axşamları, bir də kənardan gələn adlı-sanlı qonaqların şərəfinə belə atəşfəşanlıq düzəldirdilər.

On doqquzuncu əsrin əllinci illərinin axırlarında rəssam Mone ilə bərabər Bakıya gələn məşhur fransız yazıçısı Aleksandr Duma belə bir atəşfəşanlığa

tamaşa etmişdi... O, «Qafqaz səfəri» adlı əsərində Suraxanıdakı Atəşgahı gördüyünü yazır, Bibiheybətdə, Naftalan körfəzində suyun alışıb yandığını belə təsvir edir:

«...Bakıdan atəşpərəstlərin müqəddəs məbədi Atəşgaha gedəndə yolun yarıdan çoxu dəniz qırağı ilə uzanırdı. Sola burulub dayaz çökəkliklərdən və təpələrdən keçirdi. Mənzil başına çatmağımız iki saat çəkdi. Təpəliyə qalxdıqda gözümüz önündə təsvirə gəlməyən qəribə bir mənzərə açıldı. Atəşgah dövrəsindəki binalar, tüstü və alov sovuran yüzlərlə irili-xırdalı ocaqlar ovuc içi kimi görünürdü. Onlar bir kvadrat liyalu* sahədə yerləşirdi. Külək əsdikcə alov dilləri sanki qəribə rəqslər edir, gah bulaq təki qaynayır, gah dalğa təki yan-yörəyə hücum edib şahə qalxırdı. Elə təsəvvür yaranırdı ki, külək alovla oynayır, onlar bir-birinə sarılır, sonra qəfildən «əlbəyaxa» olurlar. Külək nə qədər cəhd edirdisə odu, alovu söndürə bilmirdi. Göyə bülənd olan alov əhənglənmiş binanı, onun divarlarını işıqlandırır, aydın nəzərə çarpdırırdı. Sanki bina özü də tərpənirdi. Binanın içərisindəki dairəvi ocaqlardan şölələnən qaz iri məşələ oxşayırdı. Bu ocaqların hər birinin yanında dördkünc günbəz vardı, hər küncdə də alov püskürürdü. Binanın sağ tərəfindəki ocaq daha gur yanırdı, daha çox alov sovururdu. Günbəzlərin künclərindəki ocaqların alovu nisbətən zəif idi.

Atəşgaha günbatan tərəfdən yaxınlaşdıq. Qapı günçıxana açıldığından binanın dövrəsində hərlənməli olduq.

Birdən gözlərimiz qarşısında qeyri-adi, olduqca gözəl bir mənzərə açıldı, ətraf çıraqban oldu.

Dedilər ki, bu aralar yalnız bayram günlərində, bir də müqəddəs ayinlər vaxtı belə çıraqban olur. M. Piqulevski** bizim xatirimizə əvvəldən kahinlərə xəbər göndərib mərasim hazırlatdırıb.

Atəşpərəstlər iki min ildən çoxdur ki, təqib edilirlər. Onların bu axırıncı yazıq, müti nümayəndələri mərasimi bizə göstərmək üçün əllərindən gələni əsirgəməyib, indi də əmrə müntəzir durmuşdular.

Bu mənzərəni görmək istəyən həmvətənlərim bir qədər tələsməlidirlər. Çünki atəşpərəstlərin ibadətgahlarında var-yox üç nəfər adam qalmışdı, onların da biri qoca, ikisi isə otuz-otuz beş yaşındadır.

Biz yan-yörədən alov sovrulan qapıdan dördkünc həyətə girdik. Ortadakı günbəzli səcdəgahın hər dörd küncündən əbədi alov ucalırdı. Səcdəgah hündürdədir, beş-altı pillə qalxmaq lazım gəlir. Səcdəgahın dövrəsində, bayır divarlar boyu iyirmiyə qədər hücrə var, qapıları içəriyə açılır. Bu hücrələrdə vaxtilə Zərdüştməzhəb tələbələr yaşayırmış. Hücrələrdən birində taxçada iki büt durur.

Atəşpərəstin biri kahin paltarını geydi, digəri əyninə köynək sayağı bir şəlpə keçirtdi. Başladılar ibadət etməyə. İbadət dedikdə, bu səslərin qeyri-adi

---

* Liyalu—fransız məsafə ölçüsü—4,5 km.
** Suraxanı qəsəbəsinin yerli icra rəisi.

deyişməsindən ibarət dörd-beş xromatik qamma notundan başqa bir şey deyildi. Sol və mi arasında təkrarlanır, tez-tez də Brahmanın adı çəkilirdi. Kahin arabir əyilib səcdəyə getdikcə o birisi əlindəki sincləri bir-birinə vururdu. Sinc cingildəyib bərkdən səslənir.

Mərasim tamam olandan sonra kahin hərəmizə bir parça nabat uzatdı, biz də ona bir manat pul verdik.

Neft quyularına baxmağa getdik. Ən dərini 18 metr idi. Su quyusu imiş; birdən quruyur. Dibinə baxmaq üçün cındır parçasını alışdırıb quyuya atıblar. Birdən alov ucalıb. O vaxtdan yanmaqdadır, yaxınlaşıb quyuya baxmaq qorxuludur. Qaz iyindən baş gicəllənə bilər. Vay gicəllənmiş başın halına, daha ayaqlar sözə qulaq asmayıb yerdən üzüləcək, düşəcək alov püskürən quyuya.

Hər ehtimala qarşı quyunu çəpərə alıblar. Başqa quyuları dəmir şəbəkə ilə örtüb üstünə də daş qoyublar. İstinin şiddətindən daşlar on-on iki saatda dönüb olur gips. Daşın alovdan gipsə çevrilməsinə tamaşa edirdik ki, Atəşgahın bir kilometrliyindəki Suraxanı kəndinin böyüyü yanımıza gəlib bizi çaya dəvət etdi.

Dəvəti qəbul etdik, faytona minib yola düşdük.

Əcəb çaydır. Belə təmtəraqlı məclisi təkcə çay mərasimi adlandırmaq, ən azı insafsızlıqdır.

Səliqəylə döşənib bəzədilmiş otaqda bizi ləzzətli Azərbaycan xörəklərinə qonaq etdilər. Burada dincəlib yatmaq da olardı.

Ev sahibi gecələməyimizi xahiş etdi. Mən məmnuniyyətlə qalardım, amma M. Piqulevski səhər tezdən şəhərdə olmalı idi, vacib qulluq işi vardı. O, Bakıya tək qayıtmaq istəsə də, vicdanım qəbul etmədi. Ev sahibinə təşəkkür edib gecə saat 11-də yola düşdük.

Neapol solfatorundan da üstün olan Bakı solfatoru Atəşgahının yanından keçib Bakıya qayıdırdıq».

Neft bəşəriyyətin mədəniyyət tarixinə çox qədim zamanlardan məlumdur. Onun istifadə edilməsinin sədası eramızdan da əvvəl Xəta (Çin) ölkəsindən gəlir. Babilistanda neft bulaqları vardır. Misir fironlarını mumyalamaq üçün neft əsas maddə hesab edilirdi. Neft—«yanan su» ilə Makedoniyalı İsgəndər də maraqlanırmış. Bakı nefti, bu müqəddəs, əbədi alov mənbəyi atəşpərəstlərin peyğəmbəri Zərdüştün dinindən daha qədim, daha müəmmalıdır. H. Cavid bu barədə gözəl yazmışdır: «Zərdüştü düşün, fəlsəfəsi, fikri, dühası, həp atəşə vardırmaq idi zümreyi nasi».

Düma və yol yoldaşları Bakıya gəmi ilə qayıdırlar. Naftalan (Bibiheybət) körfəzinə girişi yazıçı belə təsvir edir:

«Dənizçilərdən biri əllərində bir ovuc çəpitgə götürüb, yoldaşının tutduğu məşəldə alışdırıb dənizə tulladı. Bir anda gəmimizin ətrafını alov bürüdü. Dəniz alışıb yanırdı. Nabələd adam göyərtədə papirosunu alışdırıb yanan kağız parçasını dənizə tullasa, şübhəsiz ki, hər yanda suyun yandığını gördükdə dəhşətə gələr. Onun o anda nələr çəkdiyini yaxşı təsəvvür edirəm.

Gəmimiz od-alov içində üzürdü. Yaxşı ki, alov zəif idi, qarsası güclə duyulurdu. İlk təəssüratımızdan doğan həyəcanlarımız azalandan sonra, ətrafımızdakı qəribə mənzərəyə tamaşaya başladıq. Dənizdən alov ucalır, yan-yörəyə siyarət edirdi. Alov ləkələri ətrafında on iki adam otura biləcək stol boyda idi; bəziləri daha iriydi, nohuru xatırladırdı. Biz bu alov adacıqlarının yanından ötürdük. Kapitan arabir avar çəkənlərə gəmini alov nohurlarının ortasından sürməyi əmr edirdi. Belə qeyri-adi, əcaib, sehrli mənzərəyə dünyanın heç yerində rast gəlmək mümkün deyildi. Külək get-gedə güclənir, dalğalar şahə qalxmağa başlayırdı. Xəzri qopmasaydı, çox güman ki, səhəri burda açardıq. Külək bərkidikcə əvvəl xırda alovlar, sonra da iriləri sönməyə başladı.

—Vaxtında Bakıya qayıtmaq lazımdır,—kapitan Freyqan zarafatla əlavə etdi,—yoxsa gördüyümüz əcaib mənzərənin sirrini öyrənmək üçün dənizin dibini axtarmalı olarıq.

Sirlər aləmindən vaxt ikən uzaqlaşdıq. Külək gəmimizi Bibiheybətdə Fatimə məscidi olan yerə sürükləyirdi. Avar çəkən səkkiz nəfər dənizçi alovu söndürən küləyə üstün gəlir, istənilən səmtə irəliləyirdilər. Külək son alovları da söndürdü.

Biz onların çapalaya-çapalaya yoxa çıxmasını izləyirdik. Onlar gah dalğaların altında gizlənir, gah da ləpələrin zirvəsinə dırmanırdı. Axırda candan ayrılan ruh kimi birdən yox olurdu.

Limana çatanda bir dənizçi fitili yandırdı. Bu şərti işarə imiş. Əvvəl «Freyegem» gəmisi, onun dalınca Bakı limanına lövbər salmış başqa hərb gəmiləri çıraqlarını yandırdılar. Çıraqban gəmilərin arasından keçib sahilə yan aldıq.

Belə dəbdəbə, təmtəraqla yalnız imperatorları qarşılayırlar. Mənlə Mone isə adi sənətkarlar idik. II Aleksandr istisna olmaqla heç bir hökmdar ölkəsində bizim kimi adi, sadə sənətkarlar üçün belə maraqlı mərasim düzəldə bilməzdi. Bu incəsənətin təntənəsidir. Belə çıxır ki, incəsənət hamıdan üstündür.

Bakı—«küləkli diyar». Avropada Bakıya bərabər şəhər yoxdur».

Birdən iyirminci əsrin əvvəlində şəhərə xəbər yayıldı ki, neftxudalar Naftalan körfəzini qurudub mədən salmaq niyyətindədirlər. Peterburqa çarın özünə ərizə yazıblar. Ərizəyə rədd cavabı gəlib. Neftxudalar senata şikayət edib istədiklərinə nail oldular, şirkət düzəltdilər. Pay sahiblərindən biri, özü də ən böyüklərindən biri Ağa Musa idi.

Körfəzi qurutmaq üçün beynəlxalq müsabiqə elan edilir. Çoxlu layihə təklif edilir. Hər yerdən—Amerikadan, Almaniyadan, Fransadan və başqa ölkələrdən nümayəndələr vardı. Afrika və Asiyanı ayıran Suet kanalını layihələndirib çəkən mühəndislər də müsabiqədə iştirak edirdilər. Rusiyadan xeyli layihəçi müsabiqəyə qoşulmuşdu. Hollandiyada Şimal dənizi sahilində sədd ucaldan mühəndislərin işləri və otuza qədər digər layihə göndərilmişdi. Təkliflər müxtəlif idi. Xeyli götür-qoydan sonra sədd çəkib Naftalan körfəzini Xəzərdən ayırmaq və çuxurda qalan suyu nasosla dənizə axıdıb yerinə torpaq doldurmaqla mədən salmağı qət etdilər.

Əsrin əvvəllərində işə başladılar. Gəmilər bir milyon kubmetr daş-kəsək daşıyacaqdı. Əməliyyat 1917-ci ilə qədər davam etdi. İşin yetmiş faizi yerinə yetirilmişdi. Sonrakı illərdə burada qurutma işləri dayandırıldı. Bu işə bir də 1921-ci ildə başlandı. Qurutma işlərinə polşalı mühəndis Pototski rəhbərlik edirdi. Pototski kor olmasına baxmayaraq əməliyyatı bacarıqla idarə edirdi. Qurudulmuş əraziyə «İliç buxtası» adı qoydular. Son iyirmi üç ildə qazılan quyulardan bir neçəsi neft vermədi. Ağa Musa Nağıyevin sahəsində qazılan quyu güclü fontan vurdu. Qurudulan sahə neft seli altında qaldı. Qəfildən yanğın qopdu. Şəhər əhalisi neftçilərə köməyə gedib, yanğını söndürdülər. Pototski öləndə qurudulmuş İliç buxtasında, dəniz sahilində basdırıldı. Qəbri indi də ordadır.

Ağa Musa ağır, üzüntülü xəstəlikdən sonra 1919-cu ilin aprel ayında vəfat edib. Ümmülbəni bu hadisə barədə belə yazır. «...Babam Musa öldü, bizə, özünün dörd qız nəvəsinə böyük sərvət qoyub getdi. Bu sərvət onlarla milyonçusu olan Bakı kimi bir şəhərdə də böyük dövlət sayılırdı. Vərəsə alandan sonra on üç yaşında ikən dövləti milyonlarla hesablanan bir varlıya dönürdüm...»

...Ömrümdə ilk dəfə meyid gördüm (Parkda qurulmuş dar ağacından sallanan naməlum meyidləri istisna edirəm). (Türklərin şəhərdə qanun-qayda, nizam-intizam yaratmaq üçün dar ağacından asdıqları canilərin meyitləri nəzərdə tutulur.—M. S.) Babamın—anamın atasının meyidini çarpayıya qoyub üstünü örtmüşdülər. O uzun müddət xəstə yatmışdı... Deyirdilər ki, o ölümdən bərk qorxur. Amma xəstəliyi elə əzablı idi ki, bəlkə özü də ölüb qurtarmağı arzulayırmış. Ömrü boyu ölümdən elə qorxurmuş ki, yanında bu mövzuda söhbət salmağa qoymurmuş. Qədim bir Şərq rəvayətində deyilir ki, ev tikdirən adamı əcəl aparmır. Babam da neftdən qazandığı milyonların hesabına bir-birinin ardınca çoxlu ev tikdirirdi. Beləliklə öldüyü günə qədər altmışdan çox ev tikdirmişdi (Bir o qədər də almışdı.—M. S.). Amma el rəvayəti yalan çıxdı. Babam Musa axırıncı evi tikdirib qurtarmamış ölüm onu yaxaladı.

Beləliklə ilk dəfə yaxın bir adamın cənazəsini görürdüm. Bu ölümə yanmasam da, maraqlanır və qorxurdum. Mənə elə gəlirdi ki, ölən babam deyil, yad bir adamdır. Fikirləşirdim ki, görəsən babam indi hardadır?..»

Müsəlman adəti ilə meyidi yuyandan sonra böyük salonun ortasında tabuta qoydular. Kəşmir şalı ilə örtülmüş meyid üçün Quran oxumağa başladılar. Mollalarla dolu olan salona qadınlar girə bilməzdilər. Arvadlar başqa otaqlarda oturub mərsiyə deyir, ağlaşırdılar. Mən də onlara qoşulub hönkürürdüm. Göz yaşlarımın əsas səbəbi isə Parisdə bacılarımla gəzinmək əvəzinə burda qalmağım idi.

Dəfn mərasimi çox təntənəli keçdi. Mafəni aparan dəstənin ucu-bucağı görünmürdü. Başına fəs, papaq qoymuş kişilər dəstəsi mafənin dalınca gedirdilər. Tabutdakı cəsəd isə xırda uşaq meyidi kimi adamlar yeridikcə yırğalanırdı.

Bir həftə ərzində gəlib gedənlərə cücəplov verdilər. Yüzlərlə kasıb-kusub gəlib göz yaşı tökür, ehsan yeyirdi. Sonra araya sakitlik çökdü və mərhumun

vərəsələrindən danışmağa başladılar. Onun böyük sərvəti dörd qız nəvəsi və arvadı arasında bölüşdürülməli idi. Mən bu sərvətlə lap az maraqlanırdım, çünki ağlıma batmırdı... (Tovarişlər o sərvəti apardılar Rusiyaya—M. S.)

Ağa Musa vəfat edəndə tez-tez Ağa İsmayıl... İsmailiyyə... Naftalan... Bibiheybət sözlərini təkrar edirmiş.

İsmayılı tez-tez xatırlaması təbii hal idi. Yeganə oğlu itirmək əlbəttə ən acı faciə, dözülməz, unudulmaz dərd və ömür boyu sızıldayan yaradır... İsmailiyyə sarayını da əbədi xatirə kimi onun adına, şərəfinə ucaltmışdı... Onun tikilmə tarixi aşağıda şərh olunacaq... O ki qaldı Naftalan körfəzi və Bibiheybət, bu da əlbəttə səbəbsiz deyil. Bu yataq Abşerondakı mədənlərdən ən qədimlərindəndir... İlk dayaz quyular Bibiheybət dərəsində yüz illər əvvəl qazılmışdı. Sənayedə istismar neft təbəqələrinin işlədilməsi isə XIX əsrin 70-ci illərindən başlanmışdır. Bibiheybətdə qalınlığı iki min metrə bərabər məhsuldar qat adlanan çöküntü süxurlar kompleksində on yeddi iri, qalın və çoxlu nazik, xırda neft təbəqələri yerləşir. Bütün təbəqələrdəki neft yüksək keyfiyyətlidir. Alim geoloqlar müəyyən etmişdilər ki, Bibiheybət dərəsindən başqa Naftalan körfəzində də zəngin neft ehtiyatı var, neft yatağının yarısı su altındadır, təbəqələr dənizə uzanır. Otuzuncu illərdə geoloqlar kəşf etdilər ki, dənizin içərilərinə doğru uzanan neft təbəqələrinin ucu-bucağı görünmür. Fərdi metal bünövrələr qurub su altına uzanan təbəqələrin istismarına başladılar—«Dəniz mədəni» yarandı.

Daha sonra Bibiheybət dağında neft tapıldı. Elə o vaxt Bayılda, gəmi təmiri zavodu olan sahildə neft təbəqələri kəşf edildi.

Görünür, rəhmətlik Ağa Musanın iztirabı əbəs deyilmiş.

Geoloqların hesabına görə Bibiheybət yatağının ərazi sahəsinin balaca olmağına baxmayaraq neft sərvətinə görə dünyada birinci yeri tutur. Burda bir neçə sahədə neft çıxarılır. Bibiheybət dərəsində, «Buxtada», «Dəniz mədənində», «Dağüstü mədəndə».

Nəhayət «Cəmiyyəti-xeyriyyə» üçün «İsmailiyyə» binasının tikilməsinin tarixi barədə. Bunun çox maraqlı tarixi var.

Musa Nağıyevin oğlu Ağa İsmayıl vərəm azarına tutulmuşdu. Şəhərdə Vartapetov adlı məşhur həkim Bakı milyonçularının ailələrini müalicə edirdi. Ağa İsmayılı müayinədən keçirəndən sonra Ağa Musa Nağıyevə deyir ki, oğlanın halı çox ağırdır, tez tədbir görülməsə, tələf ola bilər. Əlli min manata qədər xərci var. Ağa İsmayılı özüm İsveçrəyə aparıb, bir il ərzində müalicə etdirib gətirrəm.

Musa Nağıyev deyir ki, on min manat verərəm. Söhbət bununla bitir. Ağa İsmayılın halı doğrudan da gündən-günə ağırlaşır. Axırda Ağa Musa oğlunun müalicəsi üçün əlli min manat verməyə razı olur. Həkim xəstəni yoxlayandan sonra xəbər verir ki, iş işdən keçib, indi heç onu yüz min manatla da xilas etmək mümkün deyil.

Hacı Zeynalabdin Tağıyevin xahişi ilə doktor Məhəmməd Rza Vəkilov xəstə oğlanı İsveçrəyə aparır, müalicədən sonra halı yaxşılaşır. Lakin o, çox yaşamır.

Tağıyev hər il Novruz bayramı münasibətilə qız məktəbinin «Ərəbkari salonu»nda stollar düzdürüb süfrə açardı və üç gün hər kəs gəlib şirin çay içər, şəkərbura, paxlava, şəkərçörəyi və digər şirniyyat yeyərdi. Ağa İsmayıl öləndən sonra Novruz bayramında Hacı bir neçə məşhur axund, qazı və ağsaqqal, o cümlədən Mir Məhəmməd Kərim, Axund Mir Abuturabla məsləhətləşib qərara gəlirlər ki, Ağa Musa gələndə cəmiyyəti xeyriyyə üçün bina tikdirməyi onun boynuna qoysunlar. Hacı qazı Mirməhəmməd Kərimə deyir ki, elə ki Musa razılaşdı, sən başlarsan dua oxumağa, hamımız da Ağa Musanı təbrik edərik, boyun qaçırmağa macal verməyək. Ağa Musa gəlir, ordan-burdan söhbət edirlər, Hacı Zeynalabdin birdən soruşur: «Ağa Musa, allah rəhmət eləsin, oğlun Ağa İsmayılın istəyirsən camaat arasında adı çıxsın? Əbədiləşsin?» «Əlbəttə istəyirəm»—Ağa Musa cavab verir. Hacı Zeynalabdin deyir: «Cəmiyyəti-xeyriyyənin mülkü, binası yoxdur, odur, mənim açdığım qız məktəbinin alt tərəfində «Qapan dibi» boşdur, orada bir mülk tikdir, adını qoyaq «İsmailiyyə», heç olmazsa, yazığın adı yaddan çıxmasın. İstəyirsən, Ağa Musa?» Ağa Musa deyir: «Əlbəttə, istəyirəm».

Hə, istəyir. Allah razı olsun. Allah mübarək eləsin.—deyə Hacı qazıya göz vurur ki, məqamdır, başla, xeyir-dua verməyə, fürsəti əldən vermə. Mir Məhəmməd Kərim əllərini qaldırıb dua oxuyur. Ağa Musanın valideynlərinə rəhmət deyir. Hamı Ağa Musanı təbrik edir.

Səhəri gün Ağa Musa başılovlu səhər tezdən gəlir Tağıyevin evinə, başlayır giley-güzara: «Ay Zeynalabdin, bu nə işdi sən mənim başıma gətirdin?.. Məni müflis edib, boynuma torba taxıb, küçələrə salmaq istəyirsən? Sınıq çıxarmaq istəyirsən?

Hacı təəccüblə soruşur:

—Nə olub axı, açıq danış.

Atam-atan, daha nə olacaq, o bina bir neçə yüz min manata başa gələcək... Məndə o tanxa hardan?

Hacı deyir:

—Ağa Musa, varidatına iki milyon verirəm. Sat alım.

Ağa Musa coşur:

—Atam-atam, mənim əlli milyon manatlıq varidatımı iki milyona almaq istəyirsən?

—Yox, almaq istəmirəm. Sən deyirsən ki, oğluvun yolunda, adını ucaltmaq üçün xərcin öhdəsindən gələ bilmirsən.

Sabahı gün Tağıyev «Kaspi» qəzetində elan verdirir ki, Ağa Musa Nağıyevin gələcəkdə bankda pulu olmasa, «İsmailiyyə» binasının xərcini ödəməyi boynuma alıram.

Layihəçilər binaya xərclənəcək vəsaitin miqdarını smetada qəsdən az göstərirlər ki, Ağa Musa fikrindən dönməsin.

Binanı tikmək üçün «Qapan dibi»ni münasib yer hesab edirlər. «Qapan dibi» gur meydan idi. Şamaxıdan, Ağdaşdan, Göyçaydan, Şəkidən, Qubadan, başqa qəza və kəndlərdən gələn kəndlilər buraya ərzaq, meyvə, xalça-palaz, mal-qara, qoyun-quzu və başqa şeylər gətirib satardılar. «Qapap dibi»nin xalis Şərq mənzərəsi vardı. Nə vaxt gəlsəydin görərdin ki, dəvələr gövdələrini yerə sərib, boyunlarını dik qaldıraraq gövşəyə-gövşəyə iri gözlərini uzaqlara dikib dincəlir. Başqa bir tərəfdə yan-yana bağlanmış kəhər, kürən, səmənd atlar boyunlarından asılmış torbalardan arpa-saman yeyə-yeyə fınxırır. Başqa bir yerdə isə iri buynuzlu, qızılı, qara, qaşqa-təpəl öküzlər ayaq üstə durub... Birdən uzaqda qopan zınqırov sədaları «Qapan dibi»nə dəvə karvanının yaxınlaşdığını xəbər verir, hər karvanda yüz, yüz əlli dəvə bir-birinin dalınca yeriyər, keçmiş Şərq ehtişamını xatırladardı... Bir də görərdin kəl arabaları bir-birinin dalınca «Qapan dibi»nə yaxınlaşır... Araba təkərlərinin cırıltısı ətrafa yayılır, toz dumana qarışırdı. Gecələr «Qapan dibi»nin başqa mənzərəsi olardı. Kəndlilər dəvələrə, kəllərə, atlara yem tökər, yaxında tonqal qalayıb, dövrəsinə yığışar, söhbət edərdilər. Ayrı-ayrı ləhcələr eşidilərdi. Qurban bayramında alverçi əlindən tərpənmək olmurdu. Dükançılar müştəri çağırır, dərvişlər qəsidə oxuyurdular.

Novruz və Qurban bayramı münasibətilə şəhərdə şənliklər başlardı.

Şəhər idarəsi «Qapan dibi»ni cümə məscidi tikmək üçün müsəlmanlara vermişdi. Milyonçular İstanbulda, Təbrizdə, İsfahanda, Bağdadda, Qahirədə olduğu kimi Bakıda da dəbdəbəli, əzəmətli bir məscid tikdirmək fikrində idilər. Nəzərdə tutulduğuna görə bu məscidin bir neçə günbəzi və qoşa eyvanlı altı minarəsi olmalı idi. Dövrəsində bağ salınacaqdı, hovuzlarda gecə-gündüz su fəvvarə vuracaqdı. Bu iş bir az təxirə düşür. Bələdiyyə idarəsi «Qapan dibi»ni müvəqqəti xırda alış-verişçilərə icarəyə verir. Böyük qapan isə yenə yerində qalırdı. Burada alverçilər birmərtəbəli dükanlar, taxtadan budkalar tikdirmişdilər. «Qapan dibi»nin adını dəyişdirib, eləyirlər «Şeytan bazar».

Xaçpərəst ruhanilər «Qızıllı» kilsənin yaxınlığında belə bir təmtəraqlı məscidin tikilməsinə mane olurlar. «Cəmiyyəti-xeyriyyə» binası tikdirmək istəyəndə isə şəhər dumasında böyük mübahisə düşür. Dumanın erməni üzvləri iddia edirlər ki, o yerdə şəhər bağı salınmalıdır. Doktor Məhəmməd Rza Vəkilov çıxış edib elə bir nitq söyləyir ki, başqaları daha danışmağa cürət etmirlər və yeri müsəlman «cəmiyyəti-xeyriyyəsinə» verirlər.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Nəriman Nərimanov Tibb institutunu bitirib qayıdandan sonra şəhər idarəsində onun Bakı şəhərinin baş sanitar həkimi təyin edilməsi üstündə mübahisə və qızğın münaqişə düşür, ermənilər mane olmaq istəyirlər. Yenə də doktor Məhəmməd Rza Vəkilov alovlu nitqlə çıxış edir, tibb və dini faktlarla sübut edir ki, bu vəzifəyə hər cəhətdən ən münasib həkim Nəriman Nərimanovdur. O həm ixtisasını, həm də əhalisinin

əksəriyyətini müsəlmanlar təşkil edən şəhərin adət-ənənəsini mükəmməl bilir. Nəhayət ki, Nərimanov Bakının baş sanitar həkimi təyin edilir.

«İsmailiyyə»nin layihəsi 1907-ci ildə hazırlanmışdı. Bu yer planlaşdırma baxımından çox əlverişli idi. Polşalı memar Ploşko əlindən gələni edir, əsər üzərində xüsusi səylə, ilhamla çalışır, imkanlardan ustalıqla istifadə eləyir.

1908-ci ildə Mövludi-nəbi bayramı münasibətilə müsəlman qız məktəbinin «Ərəbkari» böyük salonunda, «Cəmiyyəti-xeyriyyə»nin düzəltdiyi məclisdə «Şeytan bazar»da Cümə məscidi əvəzinə tikiləcək «Cəmiyyəti-xeyriyyə—İsmailiyyə»—binasının nəqşələrinin hazır olduğunu xəbər verirlər və gətirib divardan asırlar.

Binanın müsəlman cəmiyyəti-xeyriyyəsi olduğunu gözə çarpdırmaq üçün əsas və yan fəsadlarının yuxarısındakı haşiyələrdə gözəl xətlə, iri, qızılı hərflərlə IV xəlifə imam Həzrət Əlinin müdrik, dərin mənalı sözləri yazılmışdı: «İnsan yalnız zəhmətlə ucalar, istədiyinə nail ola bilər». Başqa birində: «İnsanı insan edən zəhmət olub». Üçüncüdə müraciət edilirdi: «Müsəlmanlar, əsriniz sizinlə ölür, övladlarınızı öz əsrləri üçün hazırlayın». Dördüncüdə: «İnsan beşik evindən qəbir evinə qədər oxumalıdır». Beşincidə: «Elm Çin ölkəsində olsa belə, dalınca gedin». Bu qiymətli kəlamları məşhur xəttat Mirzə Əsədulla Xiləli hüsnxətlə yazmışdı.. Xəttat Mirzə Əsədulla kasıbdı, özü də böyük külfət sahibi idi. Xeyriyyəçi gənc ziyalılar ona kömək məqsədilə iki-üç aylıq xəttat kursu düzəldib, sümük üzərində müxtəlif millətlərin aforizmlərini həkk etdirib dövlətlilərə, baha qiymətə satar, xəttatın güzəranını asanlaşdırardılar.

Layihənin müəllifi arxitektor Ploşko «İsmailiyyə»nin nəqşələrini məclisdə olanlara göstərib izahat verir. Etirafına görə onun ən böyük arzularından biri də Bakının mərkəzində milli Azərbaycan ornamentlərilə bəzədilmiş əzəmətli bir imarətin layihəsini işləmək imiş.

Arzusuna çatdıqda sevincini izah edə bilmirdi. Ağa Musa Nağıyevə öz minnətdarlığını bildirirdi.

Divarlar asılmış nəqşələr tamaşaçıları valeh etmişdi. «Şeytan bazar»ı hasara alıb, köhnə köşkləri, birmərtəbəli dükanları sökdülər. Torpaq işləri qurtarandan sonra özül qoymaq mərasimi başlandı və bu çox təntənəli keçdi. Şəhər camaatının əksəriyyəti burada idi. Şəhərin adlı-sanlı adamları, neftxudalar, bələdiyyə rəisi, Bakı qalabəyi, Bakı valisi, mülki və hərbi məmurlar, ruhanilər, ziyalılar mərasimdə iştirak edirdilər. Nitqlər söyləndi, təbriklər deyildi, arzular dinləndi. Bakı qazısı Ağa Mir Məhəmməd Kərim bir Qur`an ayəsi oxudu, sonra imperator xanədanının səlamətliyinə dua və Musa Nağıyevin ata-anasına rəhmət oxudu. Binanın tikildiyi tarix yazılmış sicili də polad qaba yerləşdirib qapağı qaynaqladılar və onu bünövrəyə qoydular.

Dəvə karvanı, at arabaları sübh açılandan axşam qaralanadək «Qızıl qaya»dan daş daşıyırdı. Daş çapan kim, palçıq-sement qarışdıran kim, divar hörən kim... İstedadlı memarın kağız üzərində cızdığı bəzəkləri mahir ustalar divarlarda

canlandırırdılar; sərt daşlar onların kələ-kötür barmaqlarının hərarətiylə sənət abidəsinə çevrilir, əsl memarlıq simfoniyasına dönürdü.

Binanın birinci mərtəbəsi hazır olanda nəzərdə tutulmuş pul qurtarır, buna görə də Ağa Musaya müraciət edirlər. Deyir: «Atam-atam, mənə deyilən xərci ödəmişəm. Bir qəpik də artıq verə bilmərəm». Bir müddət bina yarımçıq qalır. Axırda Hacı Zeynalabdin Tağıyev Musanın baş işlər müdiri Fətulla bəy Rüstəmbəyova tapşırır ki, məqama sal, xərcin qalan hissəsini də Musanın boynuna qoy. Musa işlər müdirinə çox inanırmış, hətta qara günü üçün onun adına bankda on min manat qoyubmuş. Deyirmiş ki, dünyanın işini bilmək olmaz, birdən var-yoxum əlimdən çıxar, qalaram quru yurdda. Dar məqamda adama heç kəs əl uzatmır. Adamlar vara gəlir. Bu əhvalat otuzuncu illərdə çeka Fətulla bəy Rüstəmbəyovu tutanda yaman dada çatır.

Onu ingilis kəşfiyyatına xidmət etməkdə günahlandırırlar. Fətulla bəy ittihamı rədd edib deyir: «Ağa Musa vəfat edəndə qəyyum komitəsi yaradıldı. Yoxlama vaxtı gördüm ki, mənim adıma bankda qoyulmuş 10. 000 manat qızıl pul barədə heç bir qeyd yoxdur, eynilə də vəsiyyətnamədə. Rəsmi ərizə yazıb komitəyə bildirdim və pulu qaytardım. Bu əhvalat böyük sensasiya yaratdı. Qəzetlər: «Ne bıvalaya çestnost» sərlövhəsi ilə xəbərlər yaydılar. Mən onda pula tamah etmədim. İndi qoca vaxtımda eybəcər bəd əməllə məşğul olacağam? Mən şərəfimi və Vətənimi heç nəyə və heç kimə satmaram». Qəzetləri yoxlayıb Rüstəmbəyovu azad etmişdilər.

Günlərin birində Fətulla bəy məqama salıb deyir ki, Ağa Musa, Ağa İsmayılın adına tikdirdiyimiz o gözəl bina qalıb yağışın, qarın altında xarabaya dönür, hər halda onu başa çatdırmaq lazımdır, dost var, düşmən var... Ağa Musa əllərini havaya qaldırıb deyir: «Atam-atam, get necə bilirsən elə də elə. Amma mənə o barədə bir də söz demə...»

Fətulla bəy əvvəldən hazırladığı bank sənədlərini imzalamaq üçün ona uzadır. Ağa Musa pulun qədərini görməmək üçün gözlərini yumub bir neçə cızma-qaradan ibarət qolunu sənədlərə çəkir.

Bundan sonra binanın inşasını davam etdirirlər.

O zaman mahir barmaqlarının təmasından sərt daşlar gülə-çiçəyə, butaya, qəşəng bəzək və nəqşlərə çevrilən bənnalardan usta Hənifə, usta Hacı Abbas, usta Hacı Xeyrulla, Kərbəlayı Mirzə Soltan, Səlman Ata kimilərin adları dillərdə əzbər idi. Bu əzəmətli, əfsanəvi imarəti tikdirənə, ona məsləhət verənlərə, memarlara, usta və fəhlələrə Allah rəhmət eləsin və Allah o şəxslərə rəhmət eləsin ki, erməni vəhşiləri və adamyeyənləri bu ecazkar mədəniyyət abidəsini top atəşilə tutub viranəliyə çevirəndən sonra binanı təzədən bərpa edib ucaldıblar.

Amin!..



**Həmin binanın kənardan görünüşü.**



**Respublika Əlyazmalar İnstitutunun binası – İsmailiyyə.**



**Ağa Musa Nağıyev**

**1 №-li şəhər kliniki xəstəxanasının binası (Semaşko adına xəstəxana).**





**Göy-Göl mehmanxanasının binası.**



**Xalq Təsərrüfatı İnstitutunun binası.**



**28 may küçəsi. Əkiz bacılar.**

Nəşriyyatın direktoru *Ə. T. Əliyev*
Mətbəənin direktoru *F. V. Fətəliyev*

Rəssamı *Firavan*
Bədii redaktoru *T. Qasımov*
Tekniki redaktoru *N. Qasımova*
Korrektoru *R. Qasımova*

ИБ № 0239

Yığılmağa verilmiş 2. 07. 93. Çapa imzalanmış
11. 01. 94. Kağız formatı 84X108 1/32 Mətbəə kağızı № 2. Yüksək çap üsulu.
Şərti ç/v 2,10. Uçot
nəşr v. 2,5. Tirajı 25000. Sifariş № 171. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya
Nazirliyi.
«Gənclik» nəşriyyatı, Bakı, Hüsü Hacıyev küçəsi, 4.
3 №-li kitab mətbəəsi, Bakı, Ə.Tağızadə küçəsi, 4.

Manaf Süleymanov
Azərbaycan milyonçuları
Ağa Musa Nağıyev
Bakı. Gənclik. 1994.

**Süleymanov Manaf.**
C 96 Azərbaycan milyonçuları; Musa Nağıyev. B,: Gənclik, 1994, 40 səh.

Bu kitabda Azərbaycan milyonçularından biri, xeyriyyə işlərində yaxından iştirakına baxmayaraq el arasında xəsis kimi tanınmış məşhur Ağa Musa Nağıyevdən söhbət açılır.